

Milli azadlıqdan şirin nemət yoxdur!

Erməni sakinlərin xahişi müsbət qarşılanıb

Yevlaxda ilk görüş

Bax səh. 2

YENİ AZƏRBAYCAN

Azərbaycanın dövlət müstəqilliyi Azərbaycan xalqının milli sərvətidir

Qəzet 1993-cü ilin aprel ayından nəşr olunur. 22 sentyabr 2023-cü il, cümə / № 172 (6516). Yeni Azərbaycan Partiyasının orqanı. Qiyməti 40 qəpik

Bax səh. 2

Azərbaycan və Türkiyə daim bir-birinin yanındadır

Bax səh. 2

Başlayan təmaslara böyük əhəmiyyət verilir

Mənim sözüm sözdür...

Niyyətimiz sülh, qarşılıqlı anlaşma, qarşılıqlı hörmət əsasında birgə həyat qurmaqdır

Bax səh. 3

İndi bizim bütün ərazimizdə suverenliyimiz təmin olunub

Bax səh. 5

Antiterror tədbirlərindən sonra

Qarabağ bölgəsindəki minalar zərərsizləşdirilir

Azərbaycanın Qarabağ bölgəsində keçirilən lokal xarakterli antiterror tədbirləri başa çatdıqdan sonra Azərbaycan Ordusunun mühəndis-istehkam bölmələri tərəfindən ərazinin mina və partlamamış döyüş sursatlarından təmizlənməsi üzrə fəaliyyətlər icra edilir. Müdafiə Nazirliyinin mətbuat xidmətindən verilən məlumata görə, Ermənistan silahlı qüvvələrinin birləşmələri Kəlbəcər rayonunun Çərəktar kəndinin cənubunda Vətən müharibəsindən sonra müdafiə xətti quraraq bu istiqamətdə xeyli sayda mina basdırıb.

Sentyabrın 21-də qeyd olunan istiqamətdə Ermənistanda istehsal edilmiş xeyli sayda piyada və tank əleyhinə mina təhlükəsizlik qaydalarına riayət olunmaqla zərərsizləşdirilib.

Azərbaycan Ordusunun mühəndis-istehkam bölmələri ərazilərimizin minalardan təmizlənməsi üzrə fəaliyyətlərini davam etdirir.

Bax səh. 4

Yeni Azərbaycan Partiyasının İdarə Heyətinin iclası keçirilib

Azərbaycanın bölgədə sülh və quruculuq səyləri yüksək dəyərləndirilir

Bax səh. 5

Almaniya iddialıdır, Türkiyənin isə haqqıdır

Bax səh. 7

Azərbaycanın Rus İcması:

Sonunadək qələbə əzminə görə Prezidentimiz İlham Əliyevə dərin minnətdarlığımızı bildiririk

Azərbaycanın Rus İcması Prezident, Ali Baş Komandan İlham Əliyevi, Birinci vitse-prezident Mehriban xanım Əliyevanı və bütün Azərbaycan xalqını Qarabağda uğurlu antiterror tədbirlərinin keçirilməsi münasibətilə səmimi-qəlbdən təbrik edir. Azərbaycana çox mürəkkəb olan bu vəzifənin yerinə yetirməsi üçün cəmi 24 saat vaxt lazım oldu. Otuz ildən artıq müddətdə Qarabağda yaşayan erməniləri girov saxlayan, regionda sabitliyi pozmağa davam edən qanunsuz rejim birdəfəlik darmadağın edildi və kapitulyasiya etdi. Bu Qələbə bir daha Azərbaycana qalib ölkə statusu qazandırdı.

AZƏRTAC xəbər verir ki, bu barədə Azərbaycanın Rus İcmasının bəyanatında deyilir: "Azərbaycan, Ermənistan və Rusiya tərəfindən 2020-ci il noyabrın 10-da imzalanmış üçtərəfli Bəyanata görə, Rusiya Federasiyasının sülhməramlı kontingenti erməni silahlı qüvvələrinin Azərbaycanın bölgələrindən çıxarılması ilə paralel olaraq yerləşdirilməli idi. Lakin bu baş vermədi. Bəyanatın imzalanmasından sonra erməni hərbi birləşmələrinin Qarabağda basdırdığı minaların partlaması nəticəsində 300-dən çox azərbaycanlı həlak olub və ya yaralanıb. Sentyabrın 19-da Əhmədbəyli-Füzuli-Şuşa avtomobil yolunda erməni kəşfiyyat-diversiya qruplarının əvvəlcədən basdırdığı minaların partlaması nəticəsində mülki şəxslər və Daxili İşlər Nazirliyi Daxili qoşunlarının hərbi qulluqçuları həlak olub və yaralanıb. Ermənistanın destruktiv mövqeyi danışıqlar prosesində də irəliləyiş əldə edilməsinə imkan verməyib, mütəmadi hərbi təxribatlar isə Azərbaycanı antiterror tədbirlərinə başlamağa vadar edib. Biz, Azərbaycanın rus əhalisi göstərilən mətanət, müdriklik və sonunadək qələbə əzminə görə Prezidentimiz İlham Əliyevə səmimi təşəkkürümüzü və dərin minnətdarlığımızı bildiririk. Bizim rəşadətli, şanlı Ordumuz qısa müddətdə Qələbə çalıb və separatçıları kapitulyasiyaya məcbur edib. İndi bayrağımız Xankəndi şəhərində də məğrurcasına dalğalanacaq. Azərbaycan öz suverenliyini və ərazi bütövlüyünü tam şəkildə bərpa etdi!

Bu günlərdə minlərlə insan azad olunmuş torpaqlara, yenidən inşa edilmiş evlərə qayıdır və biz ölkə rəhbərliyinin Şərqi Zəngəzur və Qarabağ iqtisadi rayonlarında sülhün və əmin-amanlığın bərpa edilməsi istiqamətində böyük səylərinin şahidi oluruq.

Yaşasın Ali Baş Komandan!
Yaşasın çoxmillətli Azərbaycan xalqı!
Yaşasın Azərbaycan Ordusu!
Qarabağ- Azərbaycandır. Və nida işarəsi!

Taxıl ixracına kömək edəcəyik, ancaq...

Polşadan Ukraynaya təklif!

Bax səh. 7

Azərbaycan və Türkiyə daim bir-birinin yanındadır

Türkiyə Respublikasının Prezidenti Rəcəb Tayyib Ərdoğan Azərbaycan Respublikasının Prezidenti İlham Əliyevə zəng edib

Sentyabrın 20-də Türkiyə Respublikasının Prezidenti Rəcəb Tayyib Ərdoğan Azərbaycan Respublikasının Prezidenti İlham Əliyevə zəng edib. Telefon söhbəti zamanı lokal xarakterli antiterror tədbirlərinin başa çatması və Azərbaycanın Qarabağ bölgəsində olan qanunsuz silahlı birləşmələrin silahı yerə qoymaları və tərk-silah olmaları barədə fikir mübadiləsi aparılıb.

Dövlət başçıları Azərbaycan və Türkiyənin daim bir-birinin yanında olduqlarını vurğulayıblar. Azərbaycan və Türkiyə prezidentləri qarşılıqlı maraq doğuran məsələlər, o cümlədən gələcək təmaslar və strateji müttəfiqlik əlaqələrinin perspektivlərinə dair fikir mübadiləsi aparıblar.

Başlayan təmaslara böyük əhəmiyyət verilir

Prezident İlham Əliyevlə Rusiya Federasiyasının Prezidenti Vladimir Putin arasında telefon danışığı olub

Sentyabrın 21-də Azərbaycan tərəfinin təşəbbüsü ilə Azərbaycan Respublikasının Prezidenti İlham Əliyevlə Rusiya Federasiyasının Prezidenti Vladimir Putin arasında telefon danışığı olub. Prezident İlham Əliyev sentyabrın 20-də Qarabağda Rusiya sülhməramlı kontingentinin hərbi qulluqçularının faciəli şəkildə həlak olması ilə bağlı üzrxahlıq ifadə edib və dərin hüznlə başsağlığı verib. Başverənlərlə bağlı hərtərəfli araşdırma aparılacağı və bütün təqsirkarların layiqli cəzalarını alacağı vurğulanıb. Bununla bağlı hər iki ölkənin Baş prokurorluqları sıx əlaqədədir. Azərbaycan Prezidenti, həmçinin həlak olanların ailələrinə maddi yardım göstərilməsinə hazır olduğunu bildirib.

Tərəflər Qarabağda hərbi əməliyyatların tam dayandırılması ilə bağlı Rusiya sülhməramlı kontingentinin köməyi sayəsində əldə edilmiş razılaşmaların ardıcıl həyata keçirilməsinin vacibliyini qeyd ediblər. Bu kontekstdə sentyabrın 21-də Yevlax şəhərində Rusiya sülhməramlı kontingentinin iştirakı ilə Azərbaycanın dövlət strukturlarının nümayəndələri və Qarabağın erməni əhalisi arasında başlayan təmaslara böyük əhəmiyyət verilir.

Regionda vəziyyətin daha da sabitləşdirilməsi və humanitar problemlərin aradan qaldırılması üzrə prioritet addımlar müzakirə edilib. Vladimir Putin Qarabağın erməni əhalisinin hüquqlarının və təhlükəsizliyinin təmin edilməsinin vacibliyini vurğulayıb. Azərbaycan tərəfinin Rusiya sülhməramlıları ilə bu məsələlər üzrə qarşılıqlı fəaliyyətə hazır olduğu təsdiqlənib.

2020-2022-ci illərdə yüksək səviyyədə əldə edilmiş məlum üçtərəfli razılaşmaların fonunda aparılan danışıqlar prosesində, ilk növbədə, nəqliyyat əlaqələrinin açılması, Azərbaycan-Ermənistan sərhədinin delimitasiyası və Bakı ilə İrəvan arasında sülh müqaviləsinin hazırlanması üzrə işlərin fəallaşdırılması razılaşdırılıb.

Erməni sakinlərin xahişi müsbət qarşılanıb

Yevlaxda ilk görüş

Azərbaycan Respublikası Prezidentinin Administrasiyasının dəvəti əsasında 2023-cü il sentyabrın 21-də Yevlax şəhərində Qarabağın erməni sakinləri ilə təmaslar üzrə müəyyən edilmiş məsul şəxs Ramin Məmmədov Qarabağın erməni sakinlərinin təmsilçiləri qismində Sergey Martirosyan və David Melkumyan ilə görüşüb.

Rusiya-Türkiyə Birgə Monitorinq Mərkəzinin Rusiya tərəfinin rəhbəri kontradmiral Oleq Semyonov iştirakçı qismində görüşə qatılıb.

Konstruktiv və müsbət mühitdə keçən görüşdə Azərbaycan Respublikasının Konstitusiyası və qanunları əsasında Qarabağın erməni əhalisinin reinteqrasiyası, infrastrukturunun bərpası və fəaliyyətinin təşkil olunması məsələləri üzrə müzakirələr apa-

rılıb.

Ramin Məmmədov tərəfindən reinteqrasiya üzrə planlar təqdim edilib.

Həmçinin Azərbaycan Respublikası Müdafiə Nazirliyinin antiterror tədbirlərinin dayandırılması üzrə 20 sentyabr tarixli bəyanatında əks olunmuş məsələlərin tez bir zamanda icrasının vacibliyi vurğulanıb.

Azərbaycanın Qarabağ bölgəsinin erməni sakinlərinin nümayəndələri sosial və humanitar xarakterli məsələlərin müzakirəsi kontekstində xüsusilə yanacağa ehtiyac duyulduğunu bildiriblər. Eyni zamanda, qida məhsulları olmaqla humanitar yardımın

Tezliklə bağça və məktəblər istilik sistemləri ilə təchiz olunacaq, təcili tibbi yardım xidmətlərinin ehtiyacları təmin ediləcək

göstərilməsini xahiş ediblər.

Görüşün nəticəsi olaraq onların xahişi müsbət qarşılanıb. Xüsusilə bağça və məktəblərin istilik sistemləri, təcili tibbi yardım və yanğınsöndürmə xidmətlərinin ehtiyacları təmin olunmaqla yanacağın tezliklə təchiz edilməsi və humanitar dəstəyin həyata keçirilməsi planlaşdırılır.

Tezliklə növbəti görüşün keçirilməsi barədə razılıq əldə edilib.

Əldə edilmiş nəticələr...

Sülh müqaviləsi üzrə danışıqların irəli aparılmasına müsbət təsir göstərəcək

Avropa İttifaqı Şurasının Prezidenti Şarl Mişel Azərbaycan Respublikasının Prezidenti İlham Əliyevə zəng edib

Qalib Azərbaycan postmüharibə dövründə bir tərəfdən beynəlxalq prinsiplər çərçivəsində sülhyaratma prosesinə töhfələr verərək onu irəli aparmaq istəyir, daim yeni təşəbbüslər irəli sürür, digər tərəfdən isə öz ərazisində separatizmin kökünü tamam kəsmək, suveren hüquqlarını və konstitusiya quruluşunu bərpa etmək əzmi nümayiş etdirir. Ölkəmizin sentyabrın 19-da Qarabağ bölgəsində başladığı və cəmi bir gün ərzində uğurla tamamladığı antiterror tədbirləri bunu bir daha təsdiqlədi. Respublikamızın öz suveren hüquqları çərçivəsində reallaşdırdığı bu tədbirlər beynəlxalq birlik, o cümlədən də sülhyaratma prosesində fəallıq göstərən Brüssel formatı tərəfindən də qəbul olunur. Sentyabrın 20-də Avropa İttifaqı Şurasının Prezidenti Şarl Mişel Azərbaycan Respublikasının Prezidenti İlham Əliyevə zəng edib. Telefon söhbəti zamanı regiondakı vəziyyət barədə fikir mübadiləsi aparılıb.

Lokal xarakterli antiterror tədbirlərini şərtləndirən amillər

Prezident İlham Əliyevlə Avropa İttifaqı Şurasının Prezidenti Şarl Mişel arasında baş tutan telefon danışığında dövlətimizin başçısı Ermənistan silahlı qüvvələrinin Azərbaycanın Qarabağ bölgəsindəki birləşmələrinin sentyabrın 19-da terror aktları törətdiklərini, nəticədə polis əməkdaşlarının və mülki şəxslərin həlak olduğunu bildirib, buna cavab olaraq Azərbaycanın lokal xarakterli antiterror tədbirləri görməli olduğunu qeyd edib.

Azərbaycan Prezidentinin diqqət çəkdiyi mina terroru Ermənistanın və separatçıların postmüharibə dövründə tez-tez əl atdıqları təxribatların davamı idi. Dünyanın gözü qarşısında iki fərqli nümunə var. Qalib Azərbaycan postmüharibə dövründə sülhyaratma prosesinin irəliləməsinə böyük səy göstərir. Respublikamızın yanaşması kifayət qədər ədalətli və obyektivdir. Dünya təcrübəsindən bəllidir ki, müharibənin qalib tərəfi olan dövlətlər bir qayda olaraq qarşı tərəfə öz şərtlərini diktə edir, imtiyazlar istəyir. Qalib Azərbaycan isə sülhyaratma prosesini şərtlər diktə etməklə yox, beynəlxalq hüquqa və prinsiplərə əsaslanmaqla irəli aparmaq istəyir. Ölkəmiz müharibə səhifəsini bağlamaq və gələcəyə baxmaq niyyətindədir. Cənubi Qafqaza, nəhayət ki, sülh gəlməli, sabitliyə, təhlükəsizliyə təhdid hallarına son qoyulmalıdır. Prezident İlham Əliyevin dəfələrlə bildirdiyi kimi, artıq Qarabağ problemi tarixdə qalıb. Postmüharibə dövründə bütün səylər Azərbaycanla Ermənistan arasında münasibətlərin nizamlanmasına fokuslanmalıdır və bundan ötrü mümkün qədər tez bir zamanda sülh sazişi imzalanmalıdır. Ölkəmizin beynəlxalq hüquq normalarına əsaslanan belə obyektiv yanaşması bütün dünyada qəbul olunur və təqdir edilir. Məğlub Ermənistanın sülhyaratma prosesinə yanaşması isə perspektivi olmayan revanşizmə, ambisiyalara əsaslanır və bu kimi səbəblərə görə də qəbuledilməzdir. Qalib Azərbaycan postmüharibə dövründə Ermənistandan üçtərəfli Bəyanatla üzərinə götürdüyü öhdəliklərə əməl etməyə, o cümlədən də ərazilərimizdən hərbi birləşmələrini bütünlüklə çıxarmağa çağırırdı. Antiterror tədbirləri başlayanadək Ermənistan ordusuna aid olan təxminən on min hərbiçi ərazilərimizdə qalmaqda idi. Verilən məlumatlara görə, ərazilərimizdə qanunsuz olaraq Ermənistan ordusuna məxsus yüzdən çox tank və zirehli texnika, radioelektron mübarizə vasitələri, iki yüzdən çox top və artilleriya qurğuları, hava hücumuna qarşı ən müasir qurğular yerləşdirilmişdi. Ölüm saçan bu sursatlar ərazilərimizə mina terrorunu davam etdirmək, mülki insanlarımızı və hərbiçilərimizi qətlə yetirmək məqsədilə daşınıb. Bütün bu kimi özbaşınalıqlara son qoyulmalı idi və Qarabağ bölgəsində suveren hüquqları çərçivəsində antiterror tədbirləri görən Azərbaycan bunu etdi.

Azərbaycanın şərtləri əsasında əldə edilən razılaşma

Telefon danışığında dövlətimizin başçısı antiterror tədbirlərinin dayandırılması ilə bağlı əldə edilmiş razılaşmaya toxunaraq, Ermənistan silahlı qüvvələrinin bölmələrinin Qarabağdan çıxarılmasının, qanunsuz silahlı dəstələrin silahı yerə qoymasının və tərk-silah edilməsinin, Yevlax görüşünün müsbət addım olduğunu bildirib.

İkinci Qarabağ müharibəsi müzəffər Azərbaycan Ordusunun gücünü, nəyə qadir olduğunu, hərbçilərimizin yüksək peşəkarlığını göstərmişdi. Silahlı Qüvvələrimiz 44 ərzində daim irəli getdi, 300-dən çox şəhər və kəndi işğaldan təmizlədi və düşməni diz çökdürərək onu kapitulyasiya aktını imzalamağa məcbur etdi. Müharibənin nəticəsi olaraq respublikamız öz gücünə ərazi bütövlüyümüzü təmin etdi. Sentyabrın 19-da başlayan antiterror tədbirləri də Azərbaycan Ordusunun gücünün və hərbiçilərimizin peşəkarlığının növbəti təzahürü oldu. Ermənistan ordusunun qalıqları çətin keçilən çoğrafi ərazilərdə istehkamlar qurmuşdular və ayrı-ayrı yüksəkliklərdə möhkəmlənmişdilər. Bütün bunlara baxmayaraq, hərbçilərimiz böyük qəhrəmanlıq, şücaət, peşəkarlıq göstərərək qarşı tərəfin müqavimərini qırmağa nail oldu. Qısa müddət ərzində bütün istiqamətlər üzrə əhəmiyyətli dərəcədə hərbi uğurlar əldə olundu. O cümlədən qanunsuz hərbi birləşmələrin böyük hissəsi tamamilə məhv edildi. Cəmi bir gün davam edən antiterror tədbirlərinin nəticəsi olaraq separatçılar ağ bayraq qaldırmaq məcburiyyətində qaldılar. Azərbaycanın şərtlərinə uyğun olaraq qəbul edilən razılaşmaya əsasən Azərbaycan Respublikasının Qarabağ bölgəsində yerləşən Ermənistan silahlı qüvvələrinin birləşmələri, qeyri-qanuni erməni silahlı dəstələri silahı yerə qoyur, döyüş mövqelərindən və hərbi postlardan çıxır və tam şəkildə tərk-silah olunurlar. Ermənistan silahlı qüvvələrinin birləşmələri Azərbaycan ərazilərini tərk edir, qeyri-qanuni erməni silahlı dəstələri buraxılır. Paralel şəkildə bütün silah-sursat və ağır texnika təhvil verilir. Antiterror tədbirlərinin bəhs olunan şərtlər əsasında razılaşma ilə yekunlaşması Azərbaycanın hərbi və diplomatik müstəvidə qazandığı növbəti böyük uğurudur. Ölkəmiz öz hədəflərinə doğru qətiyyətlə irəliləyir. Artıq Qarabağ bölkəsində respublikamızın suverenliyi tam şəkildə təmin olunub.

Mübariz ABDULLAYEV

Mənim sözüm sözdür...

Niyyətimiz sülh, qarşılıqlı anlaşma, qarşılıqlı hörmət əsasında birgə həyat qurmaqdır

Azərbaycan Cənubi Qafqazda sülhü və təhlükəsizliyi bərpa etmək istiqamətində mühüm addımlar atmaqdadır. 24 saatlıq lokal antiterror tədbirləri bölgənin həyatında yeni mərhələnin başlanğıcını formalaşdırmaqdadır. Artıq Cənubi Qafqaz hərbi təlatümlərlə və ya siyasi kataklizmlərlə deyil, təhlükəsizlik mühiti, əməkdaşlıq və inkişafla xaraktrizə olunacaq. Bu, Azərbaycanın apardığı uğurlu siyasətin təntənəsidir.

Qeyd edək ki, 24 saatlıq lokal antiterror tədbirlərindən sonra Qarabağdakı silahlılar təslim olmaqla bağlı qərar verdilər-sentyabrın 20-də onlar silahı yerə qoydular. Sentyabrın 20-də Azərbaycan Respublikasının Prezidenti İlham Əliyev xalqa müraciət edib. Prezident İlham Əlyiev müraciətində mühüm məqamlara toxunub.



23 apreldən 20 sentyabra... Laçın postunun əhəmiyyəti...

Dövlət başçısı bildirib ki, Laçın sərhəd-buraxılış məntəqəsi qurulmayana qədər İkinci Qarabağ müharibəsindən sonra Ermənistandan Azərbaycanın Qarabağ bölgəsinə qanunsuz olaraq minalar gətirilib və müxtəlif yerlərdə basdırılıb. Bir müddət bundan əvvəl Azərbaycan Silahlı Qüvvələri tərəfindən aşkarlanmış minalar Rusiya sülhməramlı kontingentinin və Rusiya-Türkiyə Monitorinq Mərkəzinin nümayəndələrinə göstərilib və onlardan ciddi tədbir görülməsi tələb edilib. Bu minalar 2021-ci ildə Ermənistanda istehsal olunmuş minalardır. Yəni bu, bir daha onu göstərir ki, İkinci Qarabağ müharibəsindən sonra məqsədyönlü şəkildə Azərbaycana qarşı terror aktlarını həyata keçirmək üçün bu minalar gətirilib.

Bəli, Azərbaycanın müasir tarixində özünəməxsus yer tutan 23 aprel tarixi-Laçın dövlət sərhəd-buraxılış məntəqəsinin formalaşdırılması bölgədəki vəziyyəti mühüm dərəcədə dəyişdi. Bu dövlət sərhəd buraxılış məntəqəsinin qurulması ermənilərin qeyri-qanuni hərəkətlərinin qarşısının alınmasında əhəmiyyətli rol oynadı. Bəlli olduğu kimi, Ermənistan 2020-ci il 10 noyabr tarixli üçtərəfli Bəyanata zidd olaraq Azərbaycan ərazisindəki qeyri-qanuni erməni silahlı dəstələri üçün canlı qüvvə, silah-sursat, mina, eləcə də digər hərbi təyinatlı vasitələrin daşınmasını təmin edirdi. Bunun qarşısını almaq üçün Azərbaycan adekvat addımlar atdı - bütün yol üzrə ermənilərin təxribatçı hərəkətlərinin qarşısı alındı, eyni zamanda, ölkəmizin suveren ərazilərində, Ermənistan ilə sərhəddə, Laçın-Xankəndi yolunun başlanğıcında sərhəd-buraxılış məntəqəsi quruldu. Bu addım Qarabağ separatizmini körükləyən Ermənistan üçün siqnala çevrildi. Beləliklə, 20 sentyabrda baş verən tərk-silah prosesində 23 aprel tarixinin yeri və rolu əvəzedilməzdir.

Hərbçilərimiz qəhrəmanlıq, peşəkarlıq göstəriblər

II Qarabağ müharibəsi zamanı 44 gün ərzində Ermənistanı dizə gətirən, kapitulyasiya imzalamağa məcbur edən Azərbaycan Ordusu post-müharibə dövründə də özünün inkişaf tempini qoruyub, daha da təkmilləşdirib. Təsadüfi deyil ki, Ali Baş Komandan İlham Əliyev öz çıxışlarında bügünkü ordumuzun II Qarabağ müharibəsi dövründəkindən daha qüdrətli, güclü olduğunu bildirib. Eyni zamanda, 24 saatlıq antiterror tədbirləri də hərbçilərimizin şücaəti, qəhrəmanlığı və peşəkarlığı ilə təcəssüm edilməlidir. Prezident İlham Əliyev xalqa müraciətində bildirib ki, ağır relyef şəraitində, düşmən tərəfindən uzun illər böyük mühəndislik işləri nəticəsində istehkamların mövcudluğu şəraitində, düşmən mövqelərinin təpələrdə, əlverişli yerlərdə yerləşdirilməsinə baxmayaraq, bizim hərbçilərimiz bir daha qeyd etdiyim kimi, qəhrəmanlıq, peşəkarlıq göstəriblər və qısa müddət ərzində bütün istiqamətlər üzrə əhəmiyyətli dərəcədə hərbi uğurlar əldə ediblər.

Bəli, Ermənistan dövlətinin Azərbaycan ərazisində qanunsuz yerləşdirilmiş və Ermənistan dövlətinin öhdəliyinə baxmayaraq, bu günə qədər çıxarılmamış ordu səhv düşüncədə idi-onlar fikirləşirdilər ki, qurduqları hansısa "səddlər" və ya "hasarlar" Azərbaycanı öz haqq işindən döndərə bilər. Amma dövlətimizin qətiyyəti bütün problemlərin həllində əsas amildir - cəmisi 24 saaata onların hərbi texnikalarının böyük bir hissəsi sıradan çıxarıldı. Bu, bir daha ölkəmzin qüdrətinin və qətiyyətinin bariz sübutuna çevrildi.

Mülki vətəndaşlar özlərini sığortalanmış vəziyyətdə hiss etdilər

Azərbaycan dövlətinin ən mühüm xüsusiyyətlərindən biri də humanizm və insanpərvərlikdir. Hələ II Qarabağ müharibəsi dövründə Azərbaycan əsgəri mülki vətəndaşları hədəfə almır, onların ziyan çəkməməsi üçün bütün mümkün imkanlardan istifadə edirdi. Prezident İlham Əliyev həmin dövrdə xalqa müraciətlərində, xarici KİV-lərə müsahibələrində dəfələrlə bu məsələyə toxunaraq bildirmişdi ki, Azərbaycan dövləti yalnız və yalnız legitim hərbi hədəflərə qarşı döyüşür.

24 saatlıq lokal antitetrror tədbirləri zamanı da mülki insanlar qorunması məsələsi ən mühüm prioritetlərdən biri kimi qarşıya qoyulmuşdu. Prezident İlham Əliyev xalqa müraciətində bildirib ki, əməliyyat başlamazdan əvvəl Onun tərəfindən bütün hərbi birləşmələrimizə bir daha ciddi tapşırıq verilib ki, aparılan antiterror tədbirləri nəticəsində Qarabağ bölgəsində yaşayan erməni əhalisi zərbə altına düşməməlidir və mülki əhali qorunmalıdır: "Biz həm yüksək dəqiqliyə malik silahlardan istifadə edərək buna nail olduq, eyni zamanda, Silahlı Qüvvələrimizin peşəkarlığı nəticəsində mülki vətəndaşlar tamamilə özlərini sığortalanmış vəziyyətdə hiss etdilər. Eyni zamanda, göstəriş verilmişdir ki, mülki infrastruktura da heç bir zərbə dəyməməlidir, ancaq hərbi infrastruktur sıradan çıxarılmalıdır".

Bu, Azərbaycan humanizminin növbəti nümayişidir. Azərbaycan dövləti bütün addımlarında beynəlxalq hüquqa, humanizm prinsiplərinə, demokratik ənənələrə, beynəlxalq konvensiyalara əsaslanır. Humanizm və insanpərvərliyə əsaslanan dövlət siyasəti isə bügünki uğurlarımızda böyük rol oynayır. Bu, Azərbaycanın tolerant və multikultural həyat tərzinin təcəssümüdür ki, Qarabağın erməni əsilli əhalisi bunun növbəti dəfə əyani şəkildə şahidi oldu.

Qarabağ Azərbaycan ərazisidir və bunu bütün dünya tanıyır...

İkinci Qarabağ müharibəsi regiondakı siyasi vəziyyəti köklü şəkildə dəyişib. Artıq Laçın dövlət sərhəd buraxılış məntəqəsi bütün reallıqları hər kəsə nümayiş etdirir. Bir zamanlar Azərbaycanla "şərt dili ilə danışan" Ermənistan artıq Qarabağın Azərbaycan ərazisi olduğunu etiraf edir. Təbii ki, bu məsələdə II Qarabağ müharibəsində qazanılan qələbənin, "Dəmir yumruğ"un payı böyükdür. Prezident İlham Əliyev xalqa müraciətində bildirib ki, Qarabağ Azərbaycan ərazisidir və bunu bütün dünya tanıyır, o cümlədən Ermənistan rəhbərliyi artıq bunu başa düşüb. Əgər vaxtilə "Qarabağ Ermənistandır və nöqtə" deyirdisə, indi "Qarabağ Azərbaycandır" deyir və nəinki deyir, hətta bizim ərazimizin ölçülərini də dilə gətirməyi unutmur: "Düzdür, bunu öz xoşu ilə etməyib, bunu "dəmir yumruq" hesabına etməyə məcbur olub. Amma fakt göz qabağındadır. Ermənistan Qarabağı Azərbaycanın ayrılmaz hissəsi kimi tanıyandan sonra Qarabağda 30 il at oynadan kriminal rejimin hansı statusu ola bilər?! Hansı dövlət atributları ola bilər?! Hansı seçkilər ola bilər?!"

Bəli, bir zamanlar himayə olunan kriminal rejim artıq reallıqları qəbul edir. Azərbaycanın qazandığı uğur, yaratdığı yeni siyasi mənzərə onların tam şəkildə məhvinə yol açıb - bir zamanlar qara xəyallarla yaşayan, hansısa "statusa" ümid edənlər II Qarabağ müharibəsindən sonra bu xəyalların boş olduğunu başa düşüblər. 24 saatlıq lokal antiterror tədbirləri isə bu məsələni tam şəkildə yekunlaşdırdı...

Qarabağın erməni əhalisi bizim vətəndaşlarımızdır

Bu, Qarabağda yaşayan erməni əhalisinin də həyatında mühüm dəyişikliklərə yol açacaq, yeni mərhələ formalaşdıracaq. Kriminal xuntanın ləğvi münasibətlərin inkişafında da yeni səhifələr açacaq. Prezident İlham Əlyiev müraciətində bildirib ki, kriminal xunta rejimi təslim olandan sonra bu gərginlik mənbəyi, bu zəhər yuvası artıq tarixdə qalır və Qarabağda yaşayan erməni əhalisi də nəhayət, rahat nəfəs ala bilər: "Bunu mən demişəm və bir daha demək istəyirəm, Qarabağın erməni əhalisi bizim vətəndaşlarımızdır. Sadəcə olaraq, erməni millətçiləri, müharibə cinayətkarları, Ermənistanın və Qarabağın dırnaqarası rəhbərləri o insanları girov götürmüşdü, onların beyinlərini zəhərləmişdi. Azərbaycan haqqında, Azərbaycan xalqı haqqında olmazın yalanlarını uydurub onların beyinlərinə doldurmuşdur, onların beyinlərini zəhərləmişdir. Mən əminəm ki, Qarabağda yaşayan erməni əhalisi tezliklə yaxşılığa doğru dönüşü görəcək. Çünki bizim niyyətimiz sülh, qarşılıqlı anlaşma, qarşılıqlı hörmət əsasında birgə həyat qurmaqdır. Bizim erməni xalqı ilə heç bir problemimiz yoxdur, ədavətimiz də yoxdur".

Azərbaycan tarixən müxtəlif millətlərin dinc, yanaşı yaşadığı, milli və dini tolerantlığın bərqərar olduğu bir ölkədir və ölkəmizdə yaşayan bütün xalqların nümayəndələrinə bərabər münasibət göstərilib və göstərilməkdədir. Ölkəmizdə millətlərarası münasibətlərin inkişafı istiqamətində ulu öndər Heydər Əliyevin əsasını qoyduğu siyasi kurs Prezident İlham Əliyev tərəfindən uğurla davam etdirilir. Məhz dövlət başçımızın apardığı uğurlu fəaliyyət Azərbaycanın multikulturalizm və tolerantlıq mərkəzi kimi dünyada şöhrət qazanmasına şərait yaradıb. Azərbaycan təcrübəsi əyani şəkildə göstərir ki, müxtəlif mədəniyyətlərə, müxtəlif dinlərə mənsub olan xalqlar mehribanlıq, sülh, əməkdaşlıq şəraitində yaşaya bilərlər. Eyni zamanda, qədim tarixə, zəngin mədəniyyət və ənənələrə malik Azərbaycan xalqı bu gün, sözün əsl mənasında, ölkəmizdəki digər xalqlarla möhkəm birlik nümunəsi sərgiləməkdədir.

Dövlət başçısı müraciətində vurğulayıb ki, Azərbaycan azad cəmiyyətdir, Azərbaycan çoxmillətli, çoxkonfessiyalı dövlətdir. Bu, bizim böyük sərvətimizdir. Azərbaycanda yaşayan hər bir xalqın nümayəndəsi bunu görür. Bunu izah etməyə ehtiyac yoxdur. Bu, bizim həyat tərzimizdir. Heç vaxt Azərbaycanda dini, milli zəmində ayrı-seçkilik olmayıb və olmayacaq, İkinci Qarabağ müharibəsi bir daha onu göstərdi: "Bütün millətlərin nümayəndələri, bütün etnik qrupların, bütün konfessiyaların nümayəndələri bir yumruq kimi birləşdi - Azərbaycan uğrunda, ləyaqət uğrunda, Vətən uğrunda! Ona görə, bax, bu gözəl ab-hava, bu, təbii bir məkandır və biz Qarabağda yaşayan erməni əhalisini buna dəvət edirik".

Bu, Cənubi Qafqazda yeni reallıq, uzunmüddətli sülh yaradacaq

Yeni siyasi reallıqlar sülh prosesini də inkişafına mühüm müsbət təsirlər göstərə bilər. Xüsusi vurğulanmalıdır ki, son bir neçə ayda dəfələrlə Azərbaycanın ərazi bütövlüyünü detallı şəkildə tanıdığını bəyan edən Ermənəistanın son proseslərdəki davranışları da onların sülhə maraq göstərdiklərini ortaya qoyur. Ermənistan dərk edir ki, sülh müqaviləsinin imzalanması bu gün daha çox onların marağında olan məsələdir - sosial problemlərin girdabında əzilən, maddi imkanları olmayan Ermənistan konstruktiv mövqeyinin qarşılığında regionun ümumi mənzərəsinə, ruhuna uyğun inkişaf yoluna qədəm qoyacaq. Rəsmi İrəvan başa düşür ki, Azərbaycan bu gün regionun aparıcı siyasi-iqtisadi aktoru kimi qəbul olunur və sülhün imzalanması Ermənistanın da regional və qlobal əməkdaşlıq platformalarına yolunu açacaq.

Prezident İlham Əliyev xalqa müraciətində bu məqama xüsusi olaraq toxunub: "Mən ümid etmək istəyirəm ki, bizim atdığımız addımlar və antiterror tədbirlərinin nəticələri imkan verəcək ki, nəhayət sülh danışıqları üçün olan, Ermənistan tərəfindən qoyulan, verilən, təklif olunan, necə adlandırırsınız adlandırın, maneə aradan qalxa bilər. Bu, Cənubi Qafqazda yeni reallıq yaradacaq, uzunmüddətli sülh yaradacaq. Biz əmin olmalıyıq ki, qarşı tərəf revanşist fikirlərlə yaşamır və onlar da əmin olmalıdırlar ki, bizim onların torpağında gözümüz yoxdur. Biz onların ərazi bütövlüyünü tanıyırıq və bunu bəyan etmişik, bütün ölkələrin ərazi bütövlüyünü tanıyırıq".

Qarabağda yaşayan sadə insanlar üçün yeni tarixi bir şans yaradılıb

Bu gün Azərbaycan siyasi, hərbi addımları ilə regionda sülhü və təhlükəsizliyi bərpa etməklə paralel həm də işğaldan azad edilmiş ərazilərimizdə genişmiqyaslı yenidənqurma və bərpa prosesi aparmaqdadır. Vətən müharibəsində şanlı Zəfərə imza atan Azərbaycan dövləti müharibə bitəndən dərhal sonra işğaldan azad edilmiş ərazilərin bərpasına başladı. Hazırda işğaldan azad edilmiş ərazilər böyük tikinti meydanını xatırladır. Burada paralel şəkildə yollar, tunellər inşa olunur, elektrik, su təchizatı xətləri çəkilir, şəhər və kəndlər bərpa edilir, hava limanları tikilir. Dövlət başçımız işğaldan azad edilən ərazilərin dünyanın nümunəvi bir məkanına çevriləcəyini bəyan edib. Görülən işlərin miqyası isə Azərbaycan dövlətinin gücünü bütün dünyaya nümayiş etdirir. Ən əsası isə böyük ərazidə bərpa-quruculuq işləri sırf respublikamızın daxili imkanları ilə həyata keçirilir.

Azərbaycan Prezidenti müraciətində bildirib ki, biz bütün Qarabağı və Şərqi Zəngəzuru yenidən qururuq, görün, nə qədər böyük işlər görürük, cəmi iki il ərzində. O bölgədə bəlkə də 30 il ərzində heç 1 faiz də iş görülməyib - elektrik stansiyaları, körpülər, tunellər, su anbarları, yaşayış binaları, kəndlər, şəhərlər qurulur: "Cəmi iki il ərzində. Heç bir yardım almadan, özümüz. İkinci Qarabağ müharibəsi başa çatanda mən demişdim, biz Qarabağı və Şərqi Zəngəzuru cənnətə çevirəcəyik və çeviririk, hər gələn insan onu görür. Eyni şəraiti biz Xankəndidə, Ağdərədə, Xocavənddə, kəndlərdə yaradacağıq, Əsgəranda yaradacağıq. Bu, bizim əlimizdədir. Ona görə bizim təklifimiz budur və bu gün dönüş nöqtəsi idi. Xunta, qansoran zəlilər artıq tamamilə ifşa olundu və təslim oldu. Onlar ağ bayraq qaldırdılar! Bu gün Qarabağda yaşayan sadə insanlar üçün yeni tarixi bir şans yaradılıb. O şansı əldən verməsinlər. Biz buna hazırıq və Azərbaycan xalqı bilir, əminəm, erməni xalqı da bilir ki, mənim sözüm sözdür. Biz bunu təklif edirik və ümid edirəm ki, bizim təklifimiz qəbul olunacaq. Çünki bu, məntiqə, tarixi ədalətə, beynəlxalq hüquqa, gələcək inkişafa əsaslanan və gələcək inkişafa hesablanan təklifdir".

Bəli, Qarabağın erməni əhalisi bilməlidir ki, artıq onların həyatında yeni bir mərhələ başlayıb. Azərbaycanın yaratdığı reallıqların nəticəsi olan bu mərhələ onlara sosial rifah və yüksək təminat vəd edir...

Bunu heç kim unutmasın!

Azərbaycan hər zaman sülhün tərəfdarı qismində çıxış edir - qalib tərəf olsaq da, humanizm prinsiplərinə əsaslanaraq müharibə istmədiyimizi önə çəkirik, 2023-cü ilin sülh ili olmasını arzulayırıq. Bunun üçün isə real şərtlər ortadadır-sonuncu antiterror tədbirləri bu mənzərəni daha da aydınlaşdırıb. Artıq Cənubi Qafqazın sülh və əməkdaşlıq regionuna çevrilməsi üçün qarşımızda maneə qalmayıb - Ermənistan özünün əsassız iddialarından əl çəkməli və sülhə razılaşmalıdır. Təbii ki, heç kim Azərbaycanın qazandığı uğurlara qarşı revanşist düşüncəyə də qapılmamalıdır. Bəzi xarici güclər isə əsla hansısa bir fərqli fikrə düşməməlidir. Əks halda... Prezident İlham Əliyev vurğulayıb ki, bizə xor baxanlar, torpağımıza göz dikənlər, uğurumuzu həzm edə bilməyənlər heç vaxt, heç vaxt unutmasınlar ki, "dəmir yumruq" yerindədir və hər zaman yerində olacaq! "Heç kim bizimlə diktat və ultimatum dilində danışa bilməz! Bunu heç kim unutmasın! Onu da unutmasın ki, Qarabağ Azərbaycandır!"

Pərviz SADAYOĞLU

Yeni Azərbaycan Partiyasının İdarə Heyətinin iclası keçirilib

Sentyabrın 21-də Yeni Azərbaycan Partiyasının (YAP) İdarə Heyətinin videokonfrans formatında iclası keçirilib. İclasda YAP-ın Təftiş Komissiyasının sədri, partiyanın Mərkəzi Aparatının əməkdaşları və yerli təşkilatların sədrləri də iştirak ediblər.

YAP Sədrinin müavini-Mərkəzi Aparatın rəhbəri Tahir Budaqov əvvəlcə Azərbaycan Respublikasının Prezidenti, Müzəffər Ali Baş Komandan, Yeni Azərbaycan Partiyasının Sədri İlham Əliyevin rəhbərliyi ilə şanlı ordumuzun həyata keçirdiyi lokal antiterror tədbirlərinin uğurla başa çatmasının əhəmiyyətindən bəhs edib. Bu hadisəni ulu öndər Heydər Əliyev tərəfindən əsası qoyulan və Prezident İlham Əliyevin uğurla davam etdirdiyi siyasətin növbəti təntənəsi kimi qiymətləndirən YAP Sədrinin müavini qeyd edib ki, antiterror tədbirlərinin Ermənistana dəstək verən beynəlxalq dairələrin ölkəmizə qarşı nümayiş etdirdiyi qeyri-obyektiv və qərəzli münasibət fonunda baş verməsinə baxmayaraq, Prezident İlham Əliyevin dəmir iradəsi və prinsipial mövqeyi nəticəsində Azərbaycanın haqq işi növbəti dəfə qələbə ilə yekunlaşdı. Bu, eyni zamanda, dövlətimizin beynəlxalq aləmdə mövqeyinin möhkəmlənməsi və nüfuzunun daha da artması istiqamətində çox önəmli addım oldu.

Tahir Budaqov vurğulayıb ki, Türkiyənin hakim Ədalət və İnkişaf Partiyası Sədrinin birinci müavini Efkan Ala telefon zəngi edərək antiterror tədbirlərinin uğurla yekunlaşması münasibətilə YAP-a təbriklərini çatdırıb, Türkiyənin hər zaman olduğu kimi, bundan sonra da Azərbaycanın yanında olacağını ifadə edib. Telefon danışığı zamanı Azərbaycana verdiyi dəstəyə, ölkəmizin haqlı mövqeyinin müdafiəsinə görə Türkiyə tərəfinə təşəkkür bildirilib.

YAP Mərkəzi Aparatının rəhbəri 21 sentyabrın Ümumdünya Sülh Günü kimi qeyd olunduğunu diqqətə çatdırıb: "Ümid edirik ki, bu gün Yevlax şəhərində Qarabağın erməni sakinlərinin nümayəndələri ilə keçirilən görüş də sülhə xidmət edəcək. Allah şəhidlərimizə rəhmət etsin, qazilərimizə şəfa versin".

Sonra YAP Sədrinin müavini-Mərkəzi Aparatın rəhbəri Tahir Budaqov iclasın gündəliyi barədə məlumat verib.

Əvvəlcə YAP Goranboy rayon təşkilatının sədri Elçin Şamil oğlu İsmayılovun vəzifəsindən azad edilməsi barədə ərizəsinə baxılıb və müvafiq qərar qəbul olunub.

Sonra YAP Füzuli rayon təşkilatının sədri vəzifəsinə Nazimə Pəsərək qızı Şamıyevanın, YAP Goranboy rayon təşkilatının sədri vəzifəsinə isə Samir Hatəm oğlu Qocayevin təyin edilməsi məsələsinə baxılıb. Müzakirələr zamanı YAP İdarə Heyətinin üzvləri Bahar Muradova, Bayram Aslanov və Cavid Osmanov çıxış edərək hər iki namizədi şəxsən tanıdıqlarını, onların bu günədək partiyanın yerli təşkilatlarında göstərdikləri fəaliyyətin və potensiallarının irəli sürülən vəzifənin öhdəsindən layiqincə gəlməyə imkan verdiyini bildiriblər. Müzakirələrdən sonra hər iki namizədin irəli sürülən vəzifələrə təyin olunması barədə qərar qəbul olunub. Nazimə Şamıyeva və Samir Qocayev çıxış edərək təşəkkürlərini bildirib və göstərilən etimadı layiqincə doğrultmağa çalışacaqlarını söyləyiblər.

İdarə Heyətinin iclasında Yeni Azərbaycan Partiyasının üzvlüyündən xaric edilməsi təklif olunan şəxslərlə bağlı YAP rayon (şəhər) təşkilatlarının təqdimatlarına da baxılıb. İdarə Heyətinin üzvü Elnarə Akimova çıxış edərək məsələyə münasibət bildirib. 304 nəfərin partiyanın nüfuzuna xələl gətirən hərəkətlərinə görə YAP sıralarından xaric olunmasına dair qərar qəbul olunub.

Sonda cari məsələlər müzakirə edilib.

Çində səfərdə olmuş YAP nümayəndə heyəti ilə görüş keçirilib

Yeni Azərbaycan Partiyasının (YAP) Mərkəzi Aparatında partiyanın 2023-cü il 11-19 sentyabr tarixlərində Çin Xalq Respublikasında (ÇXR) səfərdə olmuş gənclərdən ibarət nümayəndə heyəti ilə görüş keçirilib.

Görüşdə YAP Sədrinin müavini - Mərkəzi Aparatın rəhbəri Tahir Budaqov və ÇXR-in Azərbaycan Respublikasındakı fövqəladə və səlahiyyətli səfiri xanım Qo Min iştirak ediblər.

YAP Sədrinin müavini - Mərkəzi Aparatın rəhbəri Tahir Budaqov Azərbaycan-Çin münasibətlərinin nümunəvi xarakter daşıdığını, qarşılıqlı faydalı və çoxşaxəli əməkdaşlığın dərinləşdirilməsinin diqqət mərkəzində olduğunu bildirib. O, Azərbaycan Prezidenti, Yeni Azərbaycan Partiyasının Sədri İlham Əliyev ilə ÇXR-in Sədri, Çin Kommunist Partiyasının (ÇKP) Baş katibi Si Cinpinin iki ölkə arasında əlaqələrin inkişafına xüsusi önəm verdiklərini vurğulayıb. Tahir Budaqov liderlərin siyasi iradələri sayəsində Azərbaycan-Çin dostluq və tərəfdaşlıq münasibətlərinin genişləndirilməsi istiqamətində məqsədyönlü addımlar atıldığını söyləyib. Hər iki ölkənin birbirinin maraqlarına hörmətlə yanaşdığını və ərazi bütövlüyünü dəstəklədiyini qeyd edən YAP Mərkəzi Aparatının rəhbəri Azərbaycan Silahlı Qüvvələrinin antiterror tədbirlərinin uğurla başa çatdığını vurğulayaraq ölkəmizin regionda sülh və təhlükəsizliyin təmin olunması istiqamətində prinsipial mövqe sərgilədiyini bildirib. O, Çinin BMT Təhlükəsizlik Şurasının 5 daimi üzvündən biri kimi Azərbaycanın haqlı və ədalətli mövqeyini dəstəkləməsinin önəmini diqqətə çatdırıb.

Daha sonra YAP Sədrinin müavini qarşılıqlı səfərlərin ikitərəfli münasibətlərin inkişafı kontekstində xüsusi yer tutduğunu və mühüm əhəmiyyətə malik olduğunu qeyd edib.

YAP ilə ÇKP arasında fəal dialoqun və intensiv təmasların olduğunu bildirən Tahir Budaqov partiyanın nümayəndə heyətinin dost ölkəyə səfərinin önəmli olduğunu və səmərəli keçdiyini vurğulayıb. Səfər çərçivəsində məhsuldar görüşlərin keçirildiyini, əlaqələrin mövcud vəziyyətinin və perspektiv imkanların geniş müzakirə olunduğunu nəzərə çatdıran YAP Sədrinin müavini bu amilin həm partiyalar, həm də dövlətlər arasında əməkdaşlığın inkişafında əhəmiyyətini vurğulayıb.

YAP Mərkəzi Aparatının rəhbəri bəhs olunan səfərin xüsusilə gənclər arasında məhsuldar işbirliyinin, qarşılıqlı fikir və təcrübə mübadiləsinin aparılmasına töhfə verdiyini və gələcəyə yönəlik mühüm addım olduğunu qeyd edib. O, səfərin uğurlu və səmərəli olmasının məmnunluq doğurduğunu bildirərək göstərilən diqqətə görə Çin Kommunist Partiyasının rəhbərliyinə və səfirə təşəkkürünü bildirib. Tahir Budaqov dostluq və tərəfdaşlıq münasibətlərinin inkişafına xidmət edən qarşılıqlı səfərlərin davamlı xarakter daşıyacağına və birgə fəaliyyət nəticəsində diqqətəlayiq uğurlar qazanılacağına ümidvar olduğunu söyləyib.

YAP nümayəndə heyətinin rəhbəri, Milli Məclisin Müdafiə, təhlükəsizlik və korrupsiya ilə mübarizə komitəsinin sədri Ziyafət Əsgərov səfərin yaddaqalan olduğunu və məhsuldar görüşlər keçirildiyini bildirib. Nümayəndə heyətinə yüksək diqqət göstərildiyini vurğulayan Z.Əsgərov bu səfərin həm partiyalar, həm də ölkələr arasında ikitərəfli münasibətlərin inkişafına, xüsusilə də gənclər arasında əlaqələrin qurulmasına təkan verdiyini qeyd edib və səfərin təşkilində zəhməti olanlara, o cümlədən səfirə dərin təşəkkürünü bildirib.

Daha sonra nümayəndə heyətinin üzvləri-YAP Gənclər Birliyinin üzvü, Milli Məclisin deputatı Səbinə Xasayeva, YAP Gənclər Birliyinin üzvü Anastasia Lavrina, partiyanın Nizami rayon təşkilatının sədri Ramil Vəlibəyov səfər haqqında təəssüratlarını bölüşüblər.

ÇXR-in Azərbaycandakı fövqəladə və səlahiyyətli səfiri xanım Qo Min YAP nümayəndə heyətinin səfərlə bağlı xoş təəssüratlar ifadə etmələrinin məmnunluq doğurduğunu diqqətə çatdırıb. O, Çinin Azərbaycanla əməkdaşlığa böyük önəm verdiyini, iki ölkə liderlərinin səyləri nəticəsində qarşılıqlı münasibətlərin strateji xarakter daşıdığını və müxtəlif sahələrdə yüksələn xətt üzrə inkişaf etdiyini bildirib. Diplomat Çinin hər zaman Azərbaycanın ərazi bütövlüyünü dəstəklədiyini vurğulayıb.

Qo Min Yeni Azərbaycan Partiyası ilə Çin Kommunist Partiyası arasında əlaqələrin inkişafından bəhs edib və bu il YAP Sədrinin müavini Tahir Budaqovun rəhbərlik etdiyi nümayəndə heyətinin Çinə səfərinin əhəmiyyətini vurğulayıb. "Azərbaycanın inkişafı və uğurları bizi də sevindirir", - deyən səfir Azərbaycan-Çin münasibətlərinin yaxşı perspektivlər vəd etdiyini söyləyib və Yeni Azərbaycan Partiyasının nümayəndələrinə təşəkkürünü bildirərək uğurlar arzulayıb.

Milli Məclisdə Asiya Parlament Assambleyasının komitə iclası keçirilib

Sentyabrın 21-də Milli Məclisdə Asiya Parlament Assambleyası (APA) Sosial və mədəni məsələlər üzrə daimi komitəsinin iclası keçirilib. İclasda Milli Məclisin sədri Sahibə Qafarova, Bəhreyn, Fələstin, İndoneziya, İran, İraq, Kamboca, Küveyt, Pakistan, Qazaxıstan, Qətər, Səudiyyə Ərəbistanı, Suriya, Tailand, Tacikistan, Türkiyə və Asiya Parlament Assambleyasının Katibliyinin nümayəndə heyəti iştirak ediblər.

Toplantıda "Asiyada mədəni müxtəlifliyin təşviqi və mədəni irsin qorunması istiqamətində tədbirlər haqqında" qətnamə layihəsi, "İnformasiya və kommunikasiya texnologiyaları vasitəsilə Asiyaya inteqrasiyası haqqında" qətnamə layihəsi, Asiyada səhiyyə bərabərliyi uzrə əməkdaşlıq haqqında" qətnamə layihəsi, "Asiya parlamentariləri korrupsiyaya qarşı" qətnamə layihəsi, "APA qadın parlamentariləri haqqında" qətnamə layihəsi və digər bir sıra qətnamələrə baxılıb.

Azərbaycan Asiya Parlament Assambleyası sədrliyinə namizədliyini irəli sürüb

Asiya Parlament Assambleyası (APA) Sosial və mədəni məsələlər üzrə daimi komitəsinin iclasında qurumun baş katibi Muhammed Reza Məcidi Azərbaycanın təşkilata sədrliyinə namizədliyini dəstəklədiyini bildirib: "Asiya Parlament Assamleyasına üzv dövlətləri Azərbaycanın sədrliyinə öz dəstəyini verməyə çağırıram".

Asiya Parlament Assambleyasının sədrinin təmsilçisi, Türkiyənin qurumdakı nümayəndə heyətinin rəhbəri Abdulkadir Emin Önen Milli Məclisdə keçirilən Asiya Parlament Assambleyası (APA) Sosial və mədəni məsələlər üzrə daimi komitəsinin iclasında çıxışı zamanı bildirib ki, Türkiyə və Azərbaycan unikal və xüsusi bağlarla bir-birinə bağlıdır. Onun sözlərinə görə, hər iki qardaş xalq bir-birini hər zaman dəstəkləyir: "Qarabağın işğalı bizi üzdüyü kimi, həmin ərazilərin azad edilməsi də bizi olduqca sevindirir".

Abdulkadir Emin Önen bildirib ki, Türkiyə Asiyada olan partnyorları ilə birgə işləməyə hazırdır: "Ölkəmiz bu qitədə yeni təşəbbüslər həyata keçirir. Belə ki, Türkiyə qlobal təşəbbüslər irəli sürərək beynəlxalq əməkdaşlıqları daha ədalətli şəkildə həyata keçirməkdə məqsədlidir. Asiyada sosial məsələlərdə əməkdaşlığı təşviq etməliyik. Türkiyə regiondan ən çox miqrant qəbul edən ölkədir. Lakin bu məsələdə birgə əməkdaşlığa ehtiyac var. Bu yolla da uzunmüddətli sabitlik təmin edilmiş olsun".

Beynəlxalq konfransın iştirakçıları Qarabağdakı antiterror tədbirləri barədə məlumatlandırılıb

Milli Məclisin sədri Sahibə Qafarova Asiya Parlament Assambleyasının (APA) Bakıda keçirilən Sosial və mədəni məsələlər üzrə daimi komitəsinin iclasının açılış mərasimində çıxışı zamanı bildirib ki, sentyabrın 19-da Azərbaycanın Qarabağ bölgəsində yerləşən Ermənistan silahlı qüvvələri bir sıra irimiqyaslı hərbi təxribatlara və terror aktlarına əl atdı. Bu təxribatlara cavab olaraq, ölkəmiz regionda lokal antiterror tədbirlərinə başladı

Onun sözlərinə görə, bu tədbirlərin məqsədi Ermənistan silahlı qüvvələrinin bölmələrinin Azərbaycan ərazilərindən tərk-silah edilərək çıxarılması, onların hərbi infrastrukturunun zərərsizləşdirilməsi, dinc əhalinin təhlükəsizliyinin təmin edilməsi və Azərbaycan Respublikasının konstitusiya quruluşunun bərpası olmuşdur.

Milli Məclisin sədri bildirib ki, ötən gün Azərbaycanın Qarabağ bölgəsində yaşayan erməni sakinlərin nümayəndələrinin müraciətinə baxılaraq qeyd olunan şərtlər əsasında lokal antiterror əməliyyatlarının dayandırılması barədə razılıq əldə olunub.

Azərbaycan Asiya Parlament Assambleyası sədrliyinə namizədliyini irəli sürüb

Spiker erməni sakinlərin nümayəndələri ilə bu gün yenidən başlayan dialoqun onların Azərbaycan cəmiyyətinə reinteqrasiyası ilə nəticələnəcəyinə, öz növbəsində Ermənistanın da normallaşma prosesi çərçivəsində məsuliyyətli davranacağına və regionumuzda uzunmüddətli sülhü və sabitliyi təmin edəcək sülh sazişini imzalayacağına ümidvar olduğunu bildirib.

Sahibə Qafarova Azərbaycanın güclü iradəsinə və uzunmüddətli sülh və sabitlik istiqamətində atdığı ardıcıl addımlara baxmayaraq, Ermənistanın bunun əksinə hərəkət etdiyini xatırladıb. O, deyib ki, razılaşmalardan geri çəkilmək və yeni bəhanələr irəli sürmək, real danışıqlardan qaçmaq, hərbi-siyasi təxribatlar törətmək, ərazilərimizdə yaradılmış qanunsuz separatçı rejimi bütün mümkün vasitələrlə ayaqda saxlamaq cəhdləri Ermənistanın son iki il yarım ərzində sərgilədiyi dəyişməyən davranış şəklidir.

Qeyd olunub ki, Azərbaycan dəfələrlə Ermənistanın 10 mindən çox silahlı əsgərinin Azərbaycanın Qarabağ bölgəsindən qeyd-şərtsiz və tam çıxarılmasını və qondarma rejimin ləğvini tələb edib, bunun regionda sülhə və sabitliyə nail olmaq üçün əsas vacib şərt olduğunu bəyan edib.

Yevlax görüşündən gözləntilər

Spiker sentyabrın 19-da Azərbaycanın Qarabağ bölgəsində yerləşən Ermənistan silahlı qüvvələrinin bir sıra irimiqyaslı hərbi təxribatlara və terror aktlarına əl atdığını iştirakçıların nəzərinə çatdırıb.

O bu təxribatlara cavab olaraq ölkəmizin regionda lokal antiterror tədbirlərinə başladığını deyib, bu tədbirlərin məqsədinin Ermənistan silahlı qüvvələrinin bölmələrinin Azərbaycan ərazilərindən tərksilah edilərək çıxarılması, onların hərbi infrastrukturunun zərərsizləşdirilməsi, dinc əhalinin təhlükəsizliyinin təmin edilməsi və Azərbaycan Respublikasının konstitusiya quruluşunun bərpası olduğunu vurğulayıb.

S.Qafarova bildirib ki, ötən gün Azərbaycanın Qarabağ bölgəsində yaşayan erməni sakinlərin nümayəndələrinin müraciətinə baxılaraq qeyd olunan şərtlər əsasında lokal anti-terror tədbirlərinin dayandırılması barədə razılıq əldə olunub.

Milli Məclisin sədri erməni sakinlərin nümayəndələri ilə bu gün yenidən başlayacaq dialoqun onların Azərbaycan cəmiyyətinə reinteqrasiyası ilə nəticələnəcəyinə, öz növbəsində Ermənistanın da normallaşma prosesi çərçivəsində məsuliyyətli davranacağına və regionumuzda uzunmüddətli sülhü və sabitliyi təmin edəcək sülh sazişini imzalayacağına ümidvar olduğunu bildirib.

Suverenliyə və ərazi bütövlüyünə hörmət

Spiker Azərbaycanın güclü iradəsinə və uzunmüddətli sülh və sabitlik istiqamətində atdığı ardıcıl addımlara baxmayaraq, Ermənistanın bunun əksinə hərəkət etdiyi nəzərə çatdırıb: "Suverenliyə və ərazi bütövlüyünə hörmət bugünkü beynəlxalq nizamın əsasını təşkil edən meyardır. Razılaşmalardan geri çəkilmək və yeni bəhanələr irəli sürmək, real danışıqlardan qaçmaq, hərbi-siyasi təxribatlar törətmək, ərazilərimizdə yaradılmış qanunsuz separatçı rejimi bütün mümkün vasitələrlə ayaqda saxlamaq cəhdləri Ermənistanın son iki il yarım ərzində sərgilədiyi dəyişməyən davranış şəklidir".

S.Qafarova vurğulayıb ki, Azərbaycan dəfələrlə Ermənistanın 10 mindən çox silahlı əsgərinin Azərbaycanın Qarabağ bölgəsindən qeyd-şərtsiz və tam çıxarılmasını və qondarma rejimin ləğvini tələb edib, bunun regionda sülhə və sabitliyə nail olmaq üçün əsas vacib şərt olduğunu bəyan edib.

Günel ABBAS

Azərbaycanın bölgədə sülh və quruculuq səyləri yüksək dəyərləndirilir

Azərbaycanın xarici işlər naziri Ceyhun Bayramov Birləşmiş Millətlər Təşkilatının (BMT) Baş Assambleyasının 78-ci sessiyasında iştirakı çərçivəsində bir sıra görüşlər keçirib. Ceyhun Bayramov İsrailin xarici işlər naziri Eli Kohenlə görüşündə qarşılıqlı maraq doğuran məsələlərə dair fikir mübadiləsi aparıb. E.Kohen İsrailin Azərbaycanla hərtərəfli əməkdaşlıqda maraqlı olduğunu qeyd edib. 78-ci sessiyanın yüksək səviyyəli həftəsində iştirakı çərçivəsində C.Bayramov Səudiyyə Ərəbistanı Krallığının xarici işlər naziri Faysal bin Farhan Al Saud ilə görüş keçirib. Görüş zamanı tərəflər siyasi, iqtisadi, enerji təhlükəsizliyi, humanitar və ikitərəfli əməkdaşlığın gündəliyində duran bir sıra digər məsələlər ilə bağlı fikir mübadiləsi aparıblar. Nazirlər qarşılıqlı yüksək səviyyəli səfərlərin həyata keçirilməsinin vacibliyini vurğulayıblar.

C.Bayramov regionda baş verən son proseslər ilə bağlı məlumat verərək, 44 günlük Vətən müharibəsindən sonra Ermənistanın öhdəliklərinə zidd olaraq erməni silahlı qüvvələrini ölkəmizin ərazisindən çıxarmamasının bölgədə sülh və təhlükəsizliyə əsas təhdid olduğunu bildirib.

Əməkdaşlığın inkişafı üçün perspektivlər

Azərbaycanın XİN rəhbəri, həmçinin Lixtenşteynin xarici işlər, təhsil və idman naziri Dominik Hasler ilə görüşüb. C.Bayramov, iki ölkə arasında əməkdaşlığın inkişafı üçün perspektivlərin mövcudluğundan bəhs edərək, bu xüsusda, qarşılıqlı təmasların artırılmasının münasibətlərin inkişafında mühüm rol oynaya biləcəyini qeyd edib.

C.Bayramov 44 günlük Vətən müharibəsindən sonra bölgədə mövcud vəziyyət və reallıqlar, Azərbaycan və Ermənistan arasında münasibətlərin normallaşması və sülh prosesi, mövcud çağırışlar və təhdidlər barədə qarşı tərəfi ətraflı məlumatlandırıb. Ermənistan tərəfindən ölkəmizə qarşı aparılan qarayaxma kampaniyasında səsləndirilən əsasız iddialar, o cümlədən bölgədə guya "gərgin humanitar vəziyyət", "blokada"nın mövcudluğu ilə bağlı yalan fikirlərin əksinə, ölkəmizin hər zaman bütün Azərbaycanda yaşayan sakinlər kimi erməni sakinlərin də hüquq və təhlükəsizliyini qorumaq əzmində olduğu bildirilib.

İşgüzar səfəri çərçivəsində C.Bayramov Finlandiyanın Xarici və Avropa işləri naziri Elina Valtonenlə də görüşüb. Görüş zamanı C.Bayramov tərəf müqabilini Ermənistanın ərazilərimizin 30 illik işğalı, Azərbaycan tərəfindən post-münaqişə dövründə Ermənistan ilə ikitərəfli münasibətlərin normallaşması və azad edilmiş ərazilərdə bərpa və quruculuq işlərinin aparılması istiqamətində atılan ardıcıl addımlar haqqında məlumatlandırılıb.

Antiterror tədbirlərinin məqsədi...

Nazir eyni zamanda Finlandiyalı həmkarını regiondakı son vəziyyət və Azərbaycan tərəfindən başladılan lokal antiterror tədbirləri barəsində məlumatlandırıb, bu tədbirləri şərtləndirən amilləri diqqətə çatdırıb. Son olaraq, 18 sentyabr tarixində qanunsuz erməni hərbi birləşmələrinin kəşfiyyat-diversiya qrupları tərəfindən basdırılmış minaların partlaması nəticəsində aralarında ərazidə xidmət aparan Daxili İşlər Nazirliyinin əməkdaşları, habelə bərpa işlərinə cəlb edilmiş mülki şəxslərin olduğu 6 nəfərin həlak olduğu və 6 nəfərin isə ciddi xəsarət aldığı vurğulanıb.

Silahlı qüvvələr tərəfindən həyata keçirilən lokal antiterror tədbirlərinin müstəsna olaraq legitim hərbi hədəflərə qarşı aparıldığı, Ermənistanın qanunsuz hərbi infrastrukturunu zərərsizləşdirmək məqsədi güddüyü qeyd edilib.

XİN rəhbərimiz Ərəb Dövlətləri Liqasının (ƏDL) Baş katibi Əhməd Əbul Qeyt ilə görüşündə Azərbaycanın ƏDL çərçivəsində, habelə individual əsasda Ərəb ölkələri ilə əməkdaşlıq məsələlərini, habelə bölgədəki vəziyyəti müzakirə edib. C.Bayramov, tarixi və mədəni baxımından bir çox oxşar xüsusiyyətlərimizin olduğu Ərəb dünyası ölkələri ilə, o cümlədən ƏDL çərçivəsində əməkdaşlığa verdiyimiz əhəmiyyətdən bəhs edib. Xüsusilə, Qoşulmama Hərəkatına sədrliyimiz dövründə ƏDL üzvü olan bir sıra ölkələrlə əlaqələrimizin daha da genişləndirilməsi məmnunluqla qeyd edilib.

Sülhlə bağlı səylərimiz təqdir edildi

Baş katib Əhməd Əbul Qeyt isə ötən il Qlobal Bakı Forumu çərçivəsində ölkəmizə səfərini və dövlət başçımızla keçirdiyi görüşü xatırlayıb. O, bu kimi təmasların münasibətlərin inkişaf perspektivlərinin müzakirəsində əhəmiyyət kəsb etdiyini söyləyib. Azərbaycanın bölgədə sülh və quruculuq səylərinin təqdirəlayiq olduğu, bu xüsusda regionda dayanıqlı sülh quruculuğu sahəsində işlərin davam etdirilməsinin vacibliyi vurğulanıb.

Bundan başqa, Serbiya Respublikasının Baş nazirinin birinci müavini, xarici işlər naziri İvitsa Daçiç ilə C.Bayramov arasında görüş baş tutub. Azərbaycanın XİN-dən verilən məlumata görə, görüşdə iki ölkə arasında mövcud strateji tərəfdaşlıqdan irəli gələn məsələlər, xüsusilə, imvestisiyalar, iqtisadi və ticarət əlaqələrinin inkişaf etdirilməsi, beynəlxalq təşkilatlar çərçivəsində əməkdaşlıq imkanları, habelə bölgədəki son vəziyyət ətrafında müzakirələr aparılıb. Ölkəmizin Qarabağ regionunda lokal antiterror tədbirini şərtləndirən səbəblərdən bəhs olunub. Görüşdə, həmçinin qarşılıqlı maraq kəsb edən digər mövzular ətrafında fikir mübadiləsi aparılıb.

Ərazi bütövlüyümüz tam dəstəklənir

Körfəz Əməkdaşlıq Şurasının baş katibi Casim Əl-Budeyvi XİN başçımız C.Bayramovla görüşündə bir sıra mühüm məqamlara toxunub. Budeyvi qeyd edib ki, Azərbaycanın ərazi bütövlüyü Körfəz Ərəb Dövlətlərinin Əməkdaşlıq Şurası tərəfindən tam dəstəklənir. Görüşdə Azərbaycan və Körfəz Ərəb Dövlətlərinin Əməkdaşlıq Şurasına üzv ölkələr arasında siyasi, iqtisadi, ticarət, mədəni və digər sahələrdə əlaqələrin yüksək səviyyədə olduğu, qarşılıqlı hörmət və dostluğa əsaslandığı qeyd edilib.

Yəhudi icmaları ilə ənənəvi dostluq...

C.Bayramov BMT Baş Assambleyasının 78-ci sessiyasının yüksək səviyyəli həftəsində Yəhudi Təşkilatlarının Koalisiyasının (YTK) nümayəndələri ilə də görüşüb. O, Azərbaycanın bütün dünyadakı yəhudi icmaları ilə ənənəvi dostluq münasibətinin mövcud olduğunu vurğulayıb. Görüş zamanı, ABŞ-da yerləşən yəhudi təşkilatları ilə əməkdaşlığın mövcud vəziyyəti, perspektivləri və yeni əməkdaşlıq imkanları, eləcə də bölgəmizdə cari vəziyyət müzakirə olunub.

C.Bayramov Azərbaycanın bütün dünyadakı yəhudi icmaları ilə əlaqələrin daha da gücləndirilməsi və yeni əməkdaşlıq layihələrinin həyata keçirilməsində maraqlı olduğunu vurğulayıb. Eyni zamanda, Azərbaycanın Amerika yəhudi təşkilatları ilə əlaqələrinin yüksək səviyyədə inkişafından məmnunluq ifadə olunub. Azərbaycan yəhudi icmasının illər boyu ölkəmizdə sülh şəraitində dinc yanaşı yaşadığı və yaxından cəmiyyətimizə inteqrasiya olunduğu qeyd edilib.

Azərbaycanın multikulturalizm siyasəti

Nazir həmçinin Azərbaycanda tolerantlıq və multikulturalizmin tarixən mövcud olduğunu, müxtəlif konfessiyaların nümayəndələrinin sülh və əmin-amanlıq şəraitində ölkəmizdə dinc yanaşı yaşadığını bildirib. C.Bayramov, həmçinin ölkəmizdə çox sayda sinaqoq, məktəb, mədəniyyət mərkəzinin fəaliyyət göstərdiyini və konfessional rəngarəngliyin ölkəmizin sosial həyatında xüsusi yer tutduğunu qeyd edib.

C.Bayramov YTK-nın nümayəndələrini regiondakı son vəziyyət və Azərbaycan tərəfindən başladılan lokal antiterror tədbirləri barədə məlumatlandırıb. Nazir bunları şərtləndirən amilləri diqqətə çatdıraraq, YTK-nın regionumuzdakı həqiqətlərin Amerika ictimaiyyətinə çatdırılmasındakı rolunu vurğulayıb.

Görüşdə tərəflər, həmçinin Azərbaycan-ABŞ münasibətlərinin inkişafı perspektivləri, qarşılıqlı maraq doğuran digər məsələləri müzakirə ediblər.

Y.SAHİB

Elçin Əmirbəyov: İndi bizim bütün ərazimizdə suverenliyimiz təmin olunub

"Əldə olunmuş razılaşmada deyildiyi kimi, separatçı rejim özünü buraxmalıdır. Bu antiterror tədbirlərindən sonra Azərbaycan özünün bu ərazisi üzərindəki suverenliyini tam bərpa etdi. Həmçinin məlumdur ki, beynəlxalq hüquqa əsasən, o cümlədən dünya ictimaiyyətinin qəbul etdiyi kimi, bu torpaqlar Azərbaycan ərazisidir. Hamı, o cümlədən Fransa bu faktı qəbul edir. Hesab edirəm, bu razılaşmanın vacib nəticələrindən biri də ondan ibarətdir ki, bu, Azərbaycanla Ermənistan arasında münasibətlərin həlli üçün mühüm təsirə malik olacaq. Söhbət danışıqlar mövzusu olan sülh müqaviləsinin imzalanmasından gedir. Çünki qeyri-qanuni erməni hərbçilərinin ərazimizdə olması həm iki ölkə arasında danışıqlara, həm də sülh prosesinin davam etdirilməsinə ən ciddi maneə idi. Güman edirik ki, separatçılar qanunsuz silahlı birləşmələrini ləğv edib silahlarını təhvil verəndən sonra, həmçinin Ermənistan ordusunun qalıqları ölkəmizi tərk edəndən sonra bu, Ermənistanla Azərbaycan arasında səmərəli dialoqa öz müsbət təsirini göstərəcək, həmçinin sülh müqaviləsinin razılaşdırılması və imzalanması üçün münbit şərait yaradacaq. Bir ilə yaxındır ki, bu müzakirələr davam edir".

AZƏRTAC xəbər verir ki, bu fikirləri Azərbaycan Prezidentinin xüsusi tapşırıqlar üzrə nümayəndəsi Elçin Əmirbəyov "İ24" kanalına müsahibəsində səsləndirib.

Prezidentin xüsusi tapşırıqlar üzrə nümayəndəsi aparıcının suallarını cavablandırarkən qeyd edib ki, orada cəmi 50 minə yaxın ermənisilli sakin yaşadığı halda, 120 min rəqəmi işlədilir. Bu rəqəmə 10 min silahlı da daxildir ki, onlar da tərksilah olunub ərazimizi tərk etməlidirlər. Bunun sülh üçün çox vacib olduğunu deyən E.Əmirbəyov vurğulayıb: "Həmin razılaşmaya da bu mənada əməl olunmalıdır. Azərbaycanın mərkəzi hakimiyyət orqanlarının təmsilçiləri ilə Qarabağdakı erməni sakinlərin nümayəndələri arasında keçirilən görüşdə Qarabağda yaşayan ermənilərin Azərbaycanın siyasi və iqtisadi məkanına reinteqrasiyası məsələləri müzakirə olunacaq. Bizim tərəfimizdən bununla bağlı artıq müvafiq fikirlər və hətta tədbirlər planı hazırlanıb. Həmin təkliflər erməni icmasının nümayəndələrinə təqdim olunacaq. Buraya onların hüquqları və Azərbaycan vətəndaşları kimi əldə edəcəkləri haqlar daxildir. Vacib olan odur ki, erməni nümayəndələr konstruktiv davransınlar. Təbii ki, bu da həm danışıqlara, həm də onun nəticə verməsinə müsbət təsir göstərə bilər".

Prezidentin nümayəndəsi hesab edib ki, ərazimizdə qanunsuz silahlı birləşmələrin mövcudluğu problem aradan qaldırılmalı idi. İndi bizim bütün ərazimizdə suverenliyimiz təmin olunub. Ona görə də Ermənistan Azərbaycanla müzakirələri, danışıqları bərpa etməlidir. Ermənistanla müzakirə aparan bizim heyətimizin üzvü kimi deməliyəm ki, sülh müqaviləsinin layihəsinin demək olar yarısı razılaşdırılıb və bu, hər iki tərəfin konstruktiv yanaşması yolu ilə edilib. İndi bizim dünyanın, xüsusilə də hər iki xalqın - azərbaycanlıların və ermənilərin qəbul edəcəkləri müsbət nəticəyə gəlmək üçün daha çox ümidimiz var. Hazırda onların yaxşı qonşular kimi sülh, sabitlik və tərəqqi şəraitində həyatlarını davam etdirmələri üçün şansları yaranıb.

XİN: Fransa xarici işlər nazirinin açıqlamaları bölgədə mövcud reallıqların təhrif edilməsinə yönəlib

Fransanın Avropa və xarici işlər naziri Katrin Kolonna tərəfindən səsləndirilən olduqca məsuliyyətsiz açıqlamalar bölgədə mövcud reallıqların təhrif edilməsinə yönəlib. Bu fikirlər Fransanın Avropa və xarici işlər nazirinin Azərbaycanın Qarabağ bölgəsində qeyri-qanuni yerləşmiş erməni silahlı qüvvələrinə qarşı görülən antiterror tədbirlərinin nəticələri ilə bağlı fikirlərinə dair Azərbaycanın Xarici İşlər Nazirliyinin (XİN) şərhində yer alıb.

Bildirilib ki, qeyri-qanuni erməni silahlı qüvvələrinin mümkün hərbi təxribatlarının və terror aktlarının qarşısını almaq üçün Azərbaycan Silahlı Qüvvələri tərəfindən öz suveren ərazilərimizdə həyata keçirilən yerli antiterror tədbirləri, beynəlxalq hüquqa, o cümlədən beynəlxalq humanitar hüquqa tam uyğun şəkildə reallaşdırılıb.

Fransanın Ermənistan rəhbərliyi tərəfindən erməni silahlı qüvvələrinin ərazilərimizdən geri çəkilməsi üzrə öhdəliklərinin yerinə yetirilməməsini, hərbi-siyasi təxribatların törədilməsini, o cümlədən Ermənistan baş nazirinin son 30 ildə bu ölkə tərəfindən dəstəklənən qondarma rejimə sentyabrın 2-də ünvanladığı məsuliyyətsiz təbrik mesajını qınamaq əvəzinə, Azərbaycan əleyhinə səsləndirdiyi fikirləri separatizmin və Ermənistan daxilindəki revanşist qüvvələrin təşviqindən başqa bir şey deyil.

Fransanın BMT Təhlükəsizlik Şurasının öncəki iclaslarında Azərbaycanı təkləmək cəhdlərinin uğursuzluğa düçar olmasına baxmayaraq, bu ölkənin növbəti dəfə Təhlükəsizlik Şurasından bölgəni məhdud şəkildə anlayan siyasəti və mövcud həqiqətlərin danılması üçün istifadə etmək cəhdi təhlükəli olmaqla yanaşı, bölgədə sülh və təhlükəsizliyin bərqərar edilməsinə xidmət etmir.

"Azərbaycan heç vaxt dinc erməni sakinləri hədəf almayıb, erməni əsilli sakinlərin cəmiyyətimizə reinteqrasiyası prosesini həyata keçirməyə və Azərbaycan Respublikasının Konstitusiyası çərçivəsində onların hüquq və təhlükəsizliyinin təmin edilməsinə sadiqdir. Bu xüsusda, Fransanın erməni sakinlərin mövcud olmayan "kütləvi deportasiyası" ilə bağlı iddiası yalnız bu ölkənin Azərbaycana qarşı növbəti ittihamları səsləndirməsi üçün mövcudluğuna ümid bəslədiyi bir düşüncədir.

Bütün qeyri-qanuni silahlı birləşmələrin qısa zaman ərzində tam tərksilah edilməsi və çıxarılması, habelə qanunsuz qondarma rejiminin buraxılması, mərkəzi hökumət nümayəndələri ilə yerli erməni sakinlər arasında onların Azərbaycanın Konstitusiyası çərçivəsində bərabərhüquqlu vətəndaşlar kimi cəmiyyətimizə reinteqrasiyası ilə bağlı məzmunlu dialoq üçün şəraitin yaradılmasının açarıdır.

Bunun da öz növbəsində Azərbaycan ilə Ermənistan arasında münasibətlərin normallaşması prosesinə də müsbət töhfə verəcəyini hesab edirik.

Erməni sakinlər ilə Azərbaycan rəsmiləri arasında birbaşa dialoqun, bölgədə tərk-silah və demilitarizasiyanın praktiki baxımdan icrasına başlanılması ilə müşayiət olduğu bir vaxtda beynəlxalq ictimaiyyət, xüsusilə Fransa tərəfindən vəziyyətin dəyərləndirilməsi dövlətlərin ərazi bütövlüyünə və suverenliyinə hörmətə əsaslanan beynəlxalq hüququn normalarına uyğun olmalıdır", - deyə XİN-in şərhində vurğulanıb.

Azərbaycanda söz, fikir, məlumat azadlığı tam şəkildə təmin olunur

Azərbaycan Respublikasının Medianın İnkişafı Agentliyi

Məqalə "Azərbaycan Respublikasının Medianın İnkişafı Agentliyi"nin maliyyə dəstəyi ilə "Fikir, söz və məlumat azadlığının, plüralizmin inkişaf etdirilməsi" istiqaməti üzrə hazırlanmışdır

Günel ABBAS

Demokratiyanın əsas göstəricilərindən sayılan söz və məlumat azadlığı prinsipi dövlətlərin, xalqların hərtərəfli inkişafında, cəmiyyətlərin formalaşmasında müstəsna rol oynayır. Azərbaycan da söz azadlığının qorunduğu, mətbuat azadlığı prinsipinə hörmətlə yanaşılan ölkələrdəndir. Ölkəmizdə demokratik cəmiyyətlərə xas olan institutların formalaşdırılması və azad siyasi fəaliyyət üçün hər cür şərait yaradılıb. Demokratik seçkilər keçirilir, ən əsası isə ümumxalq səsverməsi ilə siyasi plüralizm, söz, mətbuat, vicdan azadlıqları, insan hüquqlarının müdafiəsi və qanunun aliliyi prinsiplərini təsbit edən konstitusiya qəbul edilib.

Azərbaycan Konstitusiyasının 50-ci maddəsinə uyğun olaraq hər kəsin istədiyi məlumatı qanuni yolla axtarmaq, əldə etmək, ötürmək, hazırlamaq və yaymaq azadlığı var. Fikir, söz və məlumat azadlığı, sərbəst düşüncənin ifadə olunması üçün hüquqların təmin olunması kütləvi informasiya vasitələrinin və bütövlükdə, müasir informasiya cəmiyyətinin söykəndiyi əsas dəyər sayılır. Bununla bərabər adıçəkilən amil ölkənin demokratik inkişaf səviyyəsini də müəyyənləşdirməyə imkan verir. İnsan hüquq və azadlıqlarının ayrılmaz hissəsi olan söz, fikir və ifadə azadlığı hər bir ölkədə demokratiyanın nə dərəcədə inkişaf etdiyinin və demokratik təsisatların nə dərəcədə uğurlu işləməsinin əsasını təşkil edir.

Media eksperti, professor Qulu Məhərrəmli "Yeni Azərbaycan"a açıqlamasında bildirib ki, media cəmiyyətin güzgüsü hesab olunur, çünki dövrün gerçəklərini, həqiqətlərini özündə əks etdirir: "Qəzetlər, jurnallar, televiziya və radiolar, informasiya agentlikləri və informasiyanın müntəzəm formada yayıldığı digər vasitələr, bir sözlə, Kütləvi İnformasiya Vasitələri cəmiyyətin güzgüsü olmaqla, həmin cəmiyyətin mövcud vəziyyətini, mahiyyətini göstərir. Buna görə də fikir, söz, məlumat azadlığı ölkəmizdə hər zaman qorunduğu kimi, yenə də mühafizə edilir, plüralizmin inkişafı üçün bütün imkanlar səfərbər edilir, hansıki bunu təkzib etmək mümkün deyil, çünki inkişaf, dinamika göz önündədir. Ölkəmizdə mətbuat azadlığı, fikir, söz, məlumat azadlığı var, bunu hər kəs görür. Vətəndaşlar fikirlərini sərbəst şəkildə ifadə edə bilirlər, azad şəkildə məlumat ala bilirlər və azad mətbuatın varlığına mane olacaq heç nə yoxdur. Əksinə, dövlətimiz mətbuatın azadlığı üçün lazım olan hər cür şəraiti yaradıb və belə bir şəraitin yaradılması bu gün də davam etdirilir. Bu isə gələcəkdə fikir, söz, məlumat azadlığı faktorunun daha yüksək inkişafına yol açacaq".

Q.Məhərrəmlinin sözlərinə görə, fikir, söz, məlumat azadlığı hüquqi dövlətin parametrlərindəndir və həmin cəmiyyətin inkişafına öz töhfələrini verməkdədir: "Söz, fikir azadlığı ideyaların səsləndirilməsinə və tətbiqinə imkan verirsə, şərait yaradırsa, deməli həmin cəmiyyət inkişaf edəndir. Yəni azad söz cəmiyyətdə yeni fikir, yeni yanaşma, inkişaf və proqresə öz tövhəsini verməkdədir və bu mənada da müsbət dinamikanı təmin edən əsas amillərdən hesab olunur. Elə buna görə də fikir, söz, məlumat azadlığına, eləcə də plüralizmin günü-gündən inkişafına ölkəmizdə xüsusi həssaslıqla yanaşılır. Müstəqilliyini ötən əsrin sonlarında yenidən bərpa edən Azərbaycanda məhz fikir, söz, məlumat azadlığı, plüralizmin inkişaf etdirilməsi üçün son 30 il ərzində kifayət qədər əsaslı addımlar atılıb və bu istiqamətdə dünya standartlarına, beynəlxalq normalara uyğun qanunların qəbul edilməsi heç də təsadüfi hesab olunmur".

O qeyd edib ki, söz, fikir, məlumat azadlığı təmin olunmadan, yəni informasiya cəmiyyətinin fundomental prinsipi təmin olunmadan demokratiyadan da, plüralizmdən də, azad cəmiyyətin tərəqqisindən də danışmaq mümkün deyil: "Bütün bunların təminatı üçün isə ilk növbədə həmin sahəni tənzimləyən qanunların olması və dövlət tərəfindən qorunması gərəkir, hansıki ölkəmizdə bu sahədə ilkin təminat məhz Konstitusiyamıza əsaslanır. Təsadüfi deyil ki, Azərbaycanda medianın inkişafı, söz, fikir, məlumat azadlığının təminatı üçün qanunvericilik normaları da qəbul edilib, institusional mexanizmlər, bu istiqamətdə inkişafa təkan verən qurumlar formalaşdırılıb. Yəni gələcək üçün nikbin proqnozlara məntiqi əsas var. Nəzərə almaq lazımdır ki, hazırda Azərbaycan vətəndaşlarının internetə sərbəst giriş imkanlarının, sosial şəbəkədən istifadə imkanlarının olmasına görə fikir və söz azadlıqlarına heç bir maneə ola bilməz. Bu istiqamətdə beynəlxalq standartlara uyğun normativ hüquqi bazanın olması, həmçinin azad fikir, söz imkanlarının genişliyinə, heç bir maneənin olmaması səbəbindən Azərbaycan söz, fikir, məlumat azadlığının təminatında lider dövlətlərdən hesab olunur".

Professor vurğulayıb ki, fikir, söz, eləcə də məlumat azadlığı dövlətə inamı formalaşdırır, bununla da vahid mövqedən çıxış edilməsinə əsaslı zəmin yaradır: "Əlbəttə ki, son dövrlər ölkə mediasının milli maraqlar kontekstində vahid mövqe sərgiləməsi də, dövlətin mənafeyi naminə birlik nümayiş etdirməsi də təsadüfi deyil. Əvvəla, qeyd olunduğu kimi, ölkəmizdə təmin olunan fikir, söz, eləcə də məlumat azadlığı buna əsaslı zəmin yaradıb. Digər tərəfdən, dövlətimizin milli maraqları üstün tutması medianın da milli maraqlardan, vahid mövqedən çıxış etməsinə səbəb oldu. Biz mediamızın belə bir vahid mövqedən, milli maraqlardan çıxış etməsini 44 günlük müharibə zamanı da, qələbə çaldıqdan, Zəfər əldə edikdən sonra, post-münaqişə dövründə də müşahidə etdik və ən sevindirici də elə məhz budur. Çünki bu, arzuolunan mühit və imkanların ölkəmizdə, cəmiyyətimizdə olmasından xəbər verir. Ondan xəbər verir ki, səmərəli idarəetmənin və informasiya açıqlığının mühüm vasitəsi hesab edilən dördüncü hakimiyyət, media üçün ölkəmizdə münbit şərait mövcuddur və Azərbaycanda söz, fikir, məlumat azadlığı tam şəkildə təmin olunur".

Milli həmrəylikdən kənarda qalanlar...

AXCP, "Müsavat", "ReAl" şəxsi maraqlarının və ambisiyalarının əsirinə çevrilib

Nardar BAYRAMLI

44 günlük Vətən müharibəsində olduğu kimi, Qarabağda həyata keçirilən antiterror tədbiri zamanı da ölkədə fəaliyyət göstərən 23 siyasi partiya tərəfindən birgə bəyanat qəbul olunub. Azərbaycanın siyasi partiyaları Prezident, müzəffər Ali Baş Komandan İlham Əliyevin ölkəmizin ərazi bütövlüyünün və əhalinin təhlükəsizliyinin təmin olunması, erməni silahlı birləşmələrinin təxribatlarının qarşısının alınması, işğaldan azad edilən torpaqlarımızda məskunlaşan minlərlə soydaşımızın təhlükəsizliyinin təmin olunması üçün həyata keçirdiyi siyasəti və verdiyi hərbi əmri dəstəklədiyini, onun ətrafında sıx birləşdiyini bəyan ediblər. Lakin cəmi 3 partiya - Azərbaycan Xalq Cəbhəsi Partiyası, Müsavat Partiyası və ReAl Partiyası bu bəyanata qoşulmayaraq ümummilli məsələlərdə həmrəylikdən kənarda olduqlarını nümayiş etdiriblər.

"Bunun adı rəzillik, xainlik və namərdlikdir"

Azərbaycan Demokratik Maarifçilik Partiyasının sədri, millət vəkili Elşən Musayev bildirib ki, erməni terroruna qarşı hazırlanan bəyanata 3 partiyanın imza atmaması onun göstəricisidir ki, bu partiyalar öz "ənənələrinə", anti-milli fəaliyyətlərinə sadiqdirlər: "Eyni zamanda, öz şəxsi maraq və ambisiyalarını dövlətin, xalqın maraqlarından daha üstün tuturlar. Yaxşı bəs bunun adı nədir? Əlbət ki, rəzillik, xainlik və namərdlik! Hərgah, o gün baxıram, həmin partiyaların üzvləri bizə irad tutublar ki, niyə belə deyirsiz, biz neyləmişik? Bundan artıq neyləyəcəksiz? Bundan daha betəri olurmu? Yox, əgər yenə də sual qalıbsa, o zaman deyim neyləmisiz: Ermənıyə qarşı çıxma cəsarətini özünüzdə tapmamısız. Düşmən əlinə oynamısız. Şəhidlərimizin ruhunu incitmisiniz. Qubad adında dələduzun müdafiəsini Qarabağın, Vətənin müdafiəsindən daha vacib hesab eləmisiz. Sifariş verənlərinizin, xaricdəki qəyyumlarınızın, pul aldıqlarınızın qorxusundan milli və siyasi birliyi özündə ehtiva edən sənədə imza atmamısız. Yüz bəhanə ilə aradan çıxıbsınız, əkilmisiz, səssiz qalmısınız. Yetdimi, yoxsa ardını da deyim?".

Partiya sədri deyib ki, Əli Kərimli vətən xainidir və bu gerçəkliyi hamı bilir. Üstəlik, AXCP sədri xarici piştaxtalarda özünü də, şəxsiyyətini də, fəaliyyətini də hərraca çıxaran satqındır. Eyni zamanda, Arif Hacılı ələkçinin qıl verənidir və qrant bazarında manapoliya Kərimlinin birbaşa ixtiyarında olmasın deyə o da məlum namərdliyə şərik çıxıb, Kərimlinin yanında yer alıb. İlqar Məmmədov isə özü də bilmir nədir və kimdir. Məchulluq içində boğulur. Komplekslər onu içindən yeyir. Nəhayətində isə elədiyi hərəkətlərlə, tutduğu mövqe ilə Kərimli və Hacılıdan fərqlənmir. "Ona görə üçünə də təklif etmişdim ki, gedin soyadınızı dəyişin. Biriniz Kərimyan olun, o biriniz Hacıyan, digəriniz isə Məmmədyan. Çünki belə olsa daha məntiqli görünər. Çünki bunların ermənidən fərqi yoxdur. Çünki milli və siyasi xəyanət heç bir zaman bağışlanması mümkün olmayan bir icraatdır, yanlışdır, qələtdir. Nə deyim. Ayıb olsun. Utanıb yerə girsinlər",-deyə E.Musayev söyləyib.

"Vətən müharibəsində də bu partiyalar pozuculuqla məşğul oldu"

Məsələ ilə bağlı qəzetimizə açıqlama verən Milli Cəhbə Partiyasının sədri, millət vəkili Razi Nurullayev bildirib ki, dövlət və milli məsələlərdə müxalifət olmaz. Çünki bu, artıq xalqa, millətə, dövlətə qarşı müxalifətçilik olur ki, bu da birmənalı olaraq qəbuledilməzdir. Onun sözlərinə görə, 44 günlük Vətən müharibəsində də eyni partiyalar bu cür pozuculuqla məşğul oldu: "Azərbaycan haqq savaşı aparır, bu savaşda mövqeyindən, düşüncəsindən, yanaşmasından asılı olmayaraq, hər kəs vahid mövqedən çıxış etməyə borcludur. Bu, ən azından hər birimizin vətəndaşlıq borcudur. Ötən gündən Ermənistanın Azərbaycanın konstitusiya quruluşuna yönəlik hərbi təhdidlərinə qarşı lokal antiterror əməliyyatlarına başlanılıb. Belə bir məqamda siyasi partiyaların da üzərinə məsuliyyət düşür. Dövlət qeydiyyatına alınan partiyalardan 23-ü elə əməliyyatlar başlayan gün dəstək bəyanatı ilə çıxış etdi. Amma yenə də vahid möveyin baş tutmasına mane olan qüvvələr ortaya çıxdı. AXCP sədri Əli Kərimli, Müsavat Partiyasının başqanı Arif Hacılı və ReAl Partiyasının sədri İlqar Məmmədov 23 siyasi partiyanın imzaladığı bəyanata qoşulmaqdan imtina etdilər. Doğrudur, onlar ayrı-ayrılıqda bəyanatla çıxış etdilər, amma vahid mövqeyi pozdular".

Partiya sədrinin fikrincə, bu cür milli məsələlərdə siyasi iddialarla çıxış etmək yolverilməzdir: "Özünü azərbaycanlı sayan heç kim belə məsələlərdə fərqli mövqedən çıxış etməz, etməməlidir də. Hər üç partiya hər zaman olduğu kimi yenə də siyasi birliyi pozmağa səy göstərdi, vahid mövqeni görməzdən gəldi. Elə ona görədir ki, xalq da hər dəfə bu siyasi təşkilatları görməzdən gəlir".

"Bu partiyaların tutduğu mövqe xəyanətdən başqa bir şey deyil"

"Azərbaycan Ordusu tərəfindən Qarabağda antiterror tədbirlərinin həyata keçirilməsini zəruri edən bir çox səbəblər oldu. Faktiki olaraq, separatçılar erməni sakinlərin Azərbaycana reinteqrasiyasına imkan vermirdilər, təxribatlar törədirdilər. Eləcə də Xankəndinin özündə təxribatlar oldu, süni "humanitar fəlakət" şouları yaradıldı. Faktiki olaraq, ölkəmizin ərazisində Ermənistan silahlı qüvvələrinin 10 min nəfərə yaxın hərbçisi var idi. Bütün bunlar dözülməz bir hal idi. Nəhayət, dövlətimiz antiterror tədbirləri haqqında qərar verdi. Belə bir vəziyyətdə bütün cəmiyyətimiz vahid mövqedən çıxış etməlidir". Bu fikirləri isə Böyük Azərbaycan Partiyasının sədri Elşad Musayev deyib.

Partiya sədri qeyd edib ki, bu məsələ ilə bağlı ölkənin siyasi partiyaları vahid mövqedən çıxış edərək dəstək bəyanatı imzalayıblar: "Ancaq AXCP, Müsavat və ReAl partiyaları istisna təşkil edir. Bu da onunla bağlıdır ki, anti-Azərbaycan qüvvələr ölkəmizdə onların maraqlarına uyğun fəaliyyət göstərən siyasi qüvvələrlə əməkdaşlığa üstünlük verirlər. Yeri gələndə, onları istiqamətləndirirlər, onlardan istifadə edirlər. Konkret indiki halda siyasi partiyaların birgə əməkdaşlığına imza atmamaq Azərbaycanın kürəyinə vurulan xəncərdir. Bu, 3 siyasi partiyanın xəyanəti kimi qiymətləndirilməlidir. Onların bu əməlləri qətiyyətlə pislənilməlidir".

Elşad Musayevin fikrincə, Azərbaycan cəmiyyəti bilməlidir ki, ölkənin milli qüvvələri kimdir, demokratik qüvvələri kimdir, Azərbaycanın çörəyini yeyib, suyunu içən və dar gündə Azərbaycana arxa çevirən qüvvələr kimlərdir: "Hesab edirəm ki, AXCP, Müsavat və ReAl partiyalarının tutduğu mövqe xəyanətdən başqa bir şey deyil və biz bu mövqeyi qətiyyətlə pisləyirik".

Antiterror tədbirlərini "etnik təmizləmə" adlandıranlar...

Cənubi Qafqazda sülh istəmir!

Yeganə BAYRAMOVA

Rusiya Prezidentinin mətbuat katibi Dmitri Peskov Azərbaycanın Qarabağ iqtisadi rayonunda keçirilən yerli antiterror tədbirlərini şərh edib. Kreml nümayəndəsi Qarabağın Azərbaycanın daxili işi olduğunu vurğulayıb. O, bildirib ki, Azərbaycanın Qarabağdakı antiterror tədbirlərini etnik təmizləmə adlandırmağa heç bir əsas yoxdur. Peskov bu barədə "Birinci Kanal"a açıqlamasında deyib.

Xatırladaq ki, bundan əvvəl Ermənistan Xarici İşlər Nazirliyinin xüsusi tapşırıqlar üzrə səfiri Edmon Marukyan bildirmişdir ki, ABŞ Prezidenti Co Bayden, Fransa lideri Emmanuel Makron və digər Qərb ölkələrinin rəhbərləri Qarabağda "etnik təmizləmə"yə dözürlər.

Mövzu barədə "Yeni Azərbaycan"a danışan politoloq İlyas Hüseynov bildirib ki, Peskovun məhz lokal xarakterli antiterror tədbirləri zamanı Azərbaycan Ordusunun etnik təmizləmə aparması və buna dair bütün fikirlərin əsassız olduğunu söyləməsi həqiqətə uyğundur. Politoloq qeyd edib ki, Azərbaycan Qarabağda heç bir etnik təmizləmə aparmayıb və ümumiyyətlə, dövlətimizin belə bir fikri olmayıb: "Azərbaycan yalnız legitim hərbi hədəfləri sıradan çıxararaq regionda sülhü və təhlükəsizliyi təmin edib. Burada saxta təbliğata uymaq və bu təbliğatlar əsasında fikirlər formalaşdırmaq, bunu ali səviyyədə təqdim etmək tamamilə qəbuledilməzdir. Biz müxtəlif Qərb ölkələrinin rəhbərləri tərəfindən erməni təbliğatının davamını gördük. Buna son qoymaq lazımdır. Azərbaycan Qarabağa iqtisadi rayonunda dinc, mülki ermənilərin hüquqlarını və təhlükəsizliyini təmin etmək niyyətindədir. Ölkəmiz bu istiqamətdə zəmanətlər verir, reinteqrasiya planını və yol xəritəsini reallaşdırır və Azərbaycan üçün önəmli olan regional sabitlik, təhlükəsizlik mühitinin gücləndirilməsidir. Eyni zamanda, son dövlər etnik təmizləmə ilə bağlı geniş şəkildə manipulyasiyalar edilir, əsas məqsəd Azərbaycanın Ordusunun uğurlarına xələl gətirmək, onu ləkələmək, Azərbaycanın keçirdiyi çox dəqiq və sərrast antiterror tədbirlərini damğalamaq və ona qarşı çıxmaqdır. Lakin bu, baş tutmayacaq. Azərbaycan Ordusu yüksək peşəkarlıq nümayiş etdirib. 44 günlük Vətən Müharibəsində də, antiterror tədbirlərində də bütün dünya Ordumuzun peşəkarlığını gördü. Son günlər aparılan antiterror tədbirlərinin isə etnik təmizləmə olduğuna dair fikirlərin əsası yoxdur. Belə fikirlər siyasi nizamlama prosesinə mənfi təsir göstərir və bu fikirləri dilə gətirən qüvvələr regionda sülh istəmirlər".

BMT TŞ-yə "yeni üzvlər"

Almaniya iddialıdır, Türkiyənin isə haqqıdır

Günel ABBAS

Dünyanın ən böyük siyasi təşkilatı olan Birləşmiş Millətlər Təşkilatının (BMT) formatı və strukturunun dəyişməsi ilə bağlı bir sıra laiyhələr səslənməkdədir. Dünyanın aparıcı siyasi mütəxəssisləri qurumun ən ali orqanı sayılan Təhlükəsizlik Şurasının da dəyişikliyə ehtiyac duyduğunu düşünür. Qeyd edək ki, II Dünya Müharibəsindən sonra yaranan BMT dünyada sülhün və təhlükəsizliyin təmini ilə bağlı funksiyaları həyata keçirir. Beynəlxalq sülhün və təhlükəsizliyin qorunub saxlanması üzrə əsas məsuliyyət isə Təhlükəsizlik Şurasının üzərinə düşür. Hazırda BMT Təhlükəsizlik Şurasının 15 üzvü vardır və onlardan ABŞ, Böyük Britaniya, Çin Xalq Respublikası, Fransa və Rusiya Federasiyası qurumun daimi üzvləri, digər 10 ölkə isə iki il müddətinə seçilmiş qeyri-daimi üzvlərdir. Qeyri-daimi üzvlərin hər il beşi öz "müddətini başa vururaq" dəyişir.

Şuranın hər üzvü bir səsə malikdir və prosedur məsələlər istisna olmaqla bütün işlərdə Qərarlar şuranın beş daimi üzvünün səslərinin üst-üstə düşməsilə qəbul edilir. Bu qərarlar məcburi xarakter daşıyır və BMT-yə üzv olan dövlətlər həmin qərarlara riayət etməlidirlər. BMT Təhlükəsizlik Şurasının üzvü olmaq isə hər bir dövlətin arzusudur - bu, həmin ölkənin dünyada qlobal aktor kimi qəbul olunmasının göstəricisi sayılır. Hazırda daimi üzvlüyə can atan ölkələrdən biri də Almaniyadır. Yeri gəlmişkən, Almaniyanın xarici işlər naziri Annalena Berbok bildirib ki, Almaniya BMT Təhlükəsizlik Şurasında daimi yer almaq üçün işini davam edəcək.

Diplomat vurğulayıb ki, Almaniya Federativ Respublikasının daimi üzv olmasını XXI əsrin reallıqlarını daha çox nəzərə alan genişmiqyaslı modernləşmənin bir hissəsi kimi görə bilərik.

Qeyd edək ki, son dövrlərdə aktiv siyasi fəallığı ilə seçilən Türkiyənin fəaliyyəti qlobal aktor səviyyəsindədir - NATO-nun ikinci ən güclü ordusuna malik rəsmi Ankara hərbi qarşıdurmaların geniş miqyas aldığı regionlarda sabitliyin və təhlükəsizliyin formalaşdırılması, terrora qarşı mübarizədə aktivlik nümayiş etdirir. Rusiya-Ukrayna müharibəsində vasitəçi kimi rolu, "Taxıl sazişi"nin imzalanmasındakı xidməti, Cənubi Qafqazda sülhün bərqərar olunması yönündə addımları, Yaxın Orta Şərqdə sabitliyin formalaşmasındakı qətiyyəti Ankaranın qarşıdakı mərhələdə BMT TŞ-nin daimi üzv olması üçün böyük perspektiv yarada bilər.

Politoloq Yeganə Hacıyeva "Yeni Azərbaycan"a açıqlamasında bildirib ki, hazırkı mövcud dünya düzənində BMT Təhlükəsizlik Şurası dünyanın maddi-mənəvi resurslarının gələcək taleyi ilə bağlı məsələlərə məhz daimi üzvlərin maraq dairəsindən yanaşır: "Bu, heç bir halda ədalətli deyil və İkinci Dünya Müharibəsindən sonra formalaşan ədalətsiz bir yanaşmadır. Bu mənada, ikinci dünya müharibəsinə başlamaqla dünyanın təhlükəsizlik sistemini sıradan çıxaran Almaniya kimi bir ölkənin Təhlükəsizlik Şurası üzvlüyünə iddiası da absurd yanaşmadır".

Politoloqun fikrincə, dünyada sülhün və stabilliyin təmin olunmasında iştirak edən, İslam dünyasının müdafiəçisi qismində çıxış edən Türkiyə kimi bir ölkənin isə Təhlükəsizlik Şurasında təmsil olunmaması ən böyük ədalətsizliklərdəndir. "Türkiyənin Təhlükəsizlik Şurasına üzv qəbul olunması üçün olduqca münbit və zəruri zəmin mövcuddur. Bu gün dünyanın ən aktiv nöqtələrindən sayılan Yaxın Şərqdə Türkiyə kifayət qədər nüfuzludur və mühüm söz sahibidir. Nəzərə alsaq ki, Yaxın Şərq dünyanın resurs mərkəzi kimi kifayət qədər populyardır. Eyni zamanda, bu region XX əsrin sonlarında maraqları ən çox zədələnmiş bölgə sayılır. Çünki dünyanın bir sıra ölkələri öz xarici siyasətində islamafobiyanı əsas vektor seçərək Yaxın Şərqdə destruktiv fəaliyyətlə məşğul olublar. Bunu da Yaxın Şərqdə terrorist qrupların olması və onlarla mübarizə aparılması ilə izah ediblər", - deyən Y.Hacıyevanın sözlərinə görə, BMT Təhlükəsizlik Şurasında Türkiyə kimi bir dövlətin olması bu kimi ədalətsizliklərin aradan qalxmasına ciddi töhfə verə bilər: "XXI əsrin əvvəlindən başlayaraq BMT Təhlükəsizlik Şurasının mövcud təhlükəsizlik konstruksiyasına adekvat cavab vermədiyinin şahdidi oluruq. Bunu Türkiyə də, hətta BMT-nin baş katibi də bildirib. Bu mənada, Almaniyanın quruma daimi üzv kimi uyğun görülməsi Xristian həmrəyliyi və dünyaya müəyyən bir qrupun pəncərəsindən baxmaq yanaşmasının davamıdır. Məsələ ondadır ki, bəzi dünya güclərinin XXI əsrin əvvəlindən başlayaraq özünün xarici siyasətinin vektoru kimi İslamı və terrorizmi identifikasiya etməsi hazırda geniş vüsət alan İslamofobiya

təzahürlərini artırıb. Bu mənada, İslama qarşı olan, həmrəylik və humanizm dini sayılan İslamı terrorla eyni xarakterizə etməyə çalışan bir nəsil foramalaşdırılır. Bunun nəticəsidir ki, özünü demokratik sayan ölkələrdə 2 milyarddan çox insanın dini etiqad kitabı olan müqəddəs Quranin - Kərimin yandırılması sadəcə, ifadə azadlığı kimi "izah edilir". Ancaq bu amil dünyanın mövcud konstruksiyasında kəskin qütbləşmə və bundan da müəyyən qrupların faydalanması siyasətinin güdülməsidir".

Polşadan Ukraynaya təklif!

Taxıl ixracına kömək edəcəyik, ancaq...

Polşa Ukrayna taxılının ixracı ilə əlaqədar Kiyevlə danışıqlar aparmaq niyyətindədir. Bu barədə Polşanın kənd təsərrüfatı naziri Robert Telus açıqlama verib. Nazir qeyd edib ki, Polşa tərəfi taxıla tətbiq edilən embarqo ilə bağlı problemin həlli üçün Ukrayna ilə danışıqlara hazırdır. O, yerli kanala müsahibəsində bildirib: "Biz belə danışıqları gözləyirik və belə danışıqların baş tutmasına hazırıq.

Telusun sözlərinə görə, Polşa tranzitlə bağlı Ukraynaya kömək etmək istəyir. Lakin nazir qeyd edib ki, bu, Polşa fermerlərinin hesabına olmamalıdır. Onun fikrincə, hər şey ümumi həll yolunun tapılması istiqamətində düzgün istiqamətdə gedir.

Qeyd edək ki, Polşa Ukraynadan taxıl ixracına qadağa qoymuşdu. Buna cavab olaraq, Ukrayna da Polşadan soğan, pomidor, kələm və almaya embarqo tətbiq edib. Polşanın baş naziri Mateuş Moravetski isə Ukraynaya daha silah tədarük etməyəcəklərini açıqlayıb.

Mövzunu "Yeni Azərbaycan"a şərh edən politoloq Turan Rzayev bildirib ki, Rusiyanın "Taxıl sazişi"ndən çıxması fonunda regionda taxılın ixracı məsələsində müəyyən problemlər yaranıb. Onun sözlərinə görə, bu baxımdan, alternativ dəhlizlərin yaradılması təklifləri əvvəllər də var idi.

Məqsəd taxıl böhranından çıxış yolunun tapılmasıdır

Politoloqun qənaətincə, Polşanın belə bir təklif irəli sürməsi Ukrayna taxılının Avropa bazarına çıxarılması istiqamətində bir addımdır: "Nəzərə almaq lazımdır ki, artıq taxılın yay biçimi bitib və satış məsələsi gündəmdədir. Əgər vaxtında satış olmasa, dünya bazarında un məmulatlarının qiymətinin kəskin artımasına gətirib çıxara bilər. Bu da Avropa bazarında ciddi problemlərin yaranması deməkdir. Qarşıdan qış ayları gəlir və Rusiyanın Avropaya qaz nəqli məsələsi yenidən enerji böhranına səbəb ola bilər, qiymət artımları riskini nəzərə almaq lazımdır. İndiki məqamda Rusiya həm taxıl, həm də enerji üzərindən Qərbə təzyiq etməyə çalışır. Polşa isə ən azından taxıl üzərindəki təzyiqləri azaltmaq üçün belə bir təklif irəli sürüb. Bu təklifin nə dərəcədə uğurlu olacağını isə indidən söyləmək çətindir. Aydın məsələdir ki, məqsəd Avropa bazarının taxıl ehtiyacının ödənilməsi və taxıl böhranından çıxış yolunun tapılmasıdır.

Qiymət artımına səbəb olacaq

Politoloq Polşanın belə addım atacağı təqdirdə bu durumun qiymətlərin artmasına səbəb olacağını vurğulayıb: "Çünki Ukrayna özü birbaşa limanlarla, yəni dəniz yolu ilə taxılını rahat və təhlükəsiz şəkildə ixrac edirdi. Belə olduqda isə daşınma xərclərinin sayı azalırdı. Amma Polşa üzərindən taxıl ixracının olması təbii ki, xərcləri artıracaq və bu durum yeni qiymət artımlarına gətirib çıxaracaq".

Yeganə BAYRAMOVA

Ermənistanı nə gözləyir?

Paşinyan sülhdən "danışır", müxalifət "istefa" deyir

Günel ABBAS

Məlum olduğu kimi, sentyabrın 19-dan İrəvanda kütləvi etirazlar başlayıb. Etirazçılar Ermənistanın hökumət başçısını dövlətə xəyanətdə ittiham edərək istefasını tələb ediblər. Hətta sentyabrın 20-də İrəvandakı "Respublika" meydanında keçirilən aksiyada polislə nümayişçilər arasında qarşıdurma yaşanıb. Qarşıdurma nəticəsində 34 nəfər yaralanıb ki, onlardan 16-sı polis əməkdaşıdır. Aksiya iştirakçıları tərəfindən mühasirədə saxlanılan Rusiyanın İrəvandakı səfirliyinin fəaliyyəti də iflic olub. Səfirlik bəyanatla çıxış edərək Ermənistan Xarici İşlər Nazirliyindən diplomatik nümayəndəliyin fəaliyyətinin bərpası üçün təcili tədbirlərin görülməsini tələb edib. Qeyd edək ki, Ermənistanın müxalifət partiyaları xalqı meydanlara çıxmağa səsləyib. Onlar Ermənistanın baş naziri Nikol Paşinyanın istefasını tələb edirlər. Buna səbə kimi isə Azərbaycanın

Qarabağ regionunda həyata keçirdiyi 24 saatlıq lokal antiterror tədbirləri göstərilib. Xatırladaq ki, tədbirlər nəticəsində Qarabağdakı silahlılar təslim olublar. Bu isə Ermənistandakı siyasi-ictimai vəziyyəti daha da gərginləşdirib. Baş nazir Nikol Paşinyanın iqamətgahı çoxlu sayda polis tərəfindən qorunur. Nikol Paşinyan isə açıqlamasında tərəfdarlarına istefaya getməyəcəyini bildirib. Verilən məlumata görə, 20 sentyabr tarixində hökumət binası yaxınlığında etiraz aksiyaları fonunda Paşinyan tərəfdaşları ilə görüşüb onlara istefa verməyəcəyini və nəyin bahasına olursa-olsun hakimiyyəti saxlayacağını bəyan edib. Baş nazirin bu açıqlamasından sonra meydandakı təhlükəsizlik qüvvələri etirazçılara qarşı daha sərt tədbirlərə keçiblər.

Yeri gəlmişkən, Nikol Paşinyanın bir neçə gündür ki, Rusiya Prezidenti Vladimir Putinlə telefon danışığı cəhdi axır ki baş tutub. Ermənı tərəfinin təşəbbüsü ilə baş tutan danışıqda Putin və Paşinyan son hadisələri müzakirə ediblər.

Politoloq Tural İsmayılov "Yeni Azərbaycan"a açıqlamasında bildirib ki, Putinlə Paşinyan arasındakı telefon danışığı Paşinyanın israrları nəticəsində baş tutub: "Yəni bir növ məcburən həyata keçirilmiş bir danışıqdır. Paşinyan ötən günlər ərzində dəfələrlə Rusiya prezidentinə zəng edib və onun telefon danışığına nail olmağa çalışdığı vurğulanır. Rusiya rəhbərliyi baş verənlərin real mənzərəsi ilə tanışdır. Son dövrlərdə bu ölkənin anti-Rusiya əhval-ruhiyyəsi bəlli idi. Bunda isə Paşinyan komandası günahlandırılır. Təbii ki, Qarabağ regionunda aparılan lokal antiterror tədbirləri ümumi mənzərənin daha da gərginləşməsinə yol açıb".

Politoloqun fikrincə, qarşıdakı günlərdə prosesdə müəyyən səngiməlari də görmək mümkündür. Ermənistan mətbuatı Paşinyanın sülhlə bağlı pozitiv fikirlər səsləndirdiyini yazır. Bu isə ümumi hadisələrin gedişinə mühüm təsirlər göstərə bilər. "Rusiya-Ermənistan münasibətlərinin hansı istiqamətdə inkişaf edəcəyi ilə bağlı müəyyən fərqli proqnozların şahidi oluruq. Bəzi hallarda Rusiyanın Paşinyanın hakimiyyətdə qalması razılaşa bilməyəcəyi vurğulanır ki, bu da mümkündür. "Çünki Rusiya rəhbərliyi anlayır ki, Ermənistandakı sorosçularla hansısa danışıqların aparılması effekt verməyəcək. Həmçinin Rusiya rəhbərliyi yaxşı bilir ki, bu gün Ermənistandakı anti-Rusiya əhval-ruhiyyəsi bitməyib və Moskva bunun ən böyük günahkarı kimi hazırkı iqtidar komandasını göstərir. Bu baxımdan münasibətlərin inkişafı istiqaməti ilə bağlı fikir səsləndirmək üçün zamana ehtiyac var. Ola bilsin ki, Rusiya Paşinyan iqtidarının Ermənistanda əvəzlənməsi üçün səy göstərsin", -deyə T.İsmayılov əlavə edib.

YENİ AZƏRBAYCAN
http://www.yeniazerbaycan.com
Azərbaycanın dövlət müstəqilliyi Azərbaycan xalqının milli sərvətidir

"Yeni Azərbaycan" qəzetinə abunə olmaq istəyənlər aşağıdakı yayım şirkətləri ilə əlaqə saxlaya bilərlər

Azərpoçt Poçtdaşıma Mərkəzi - 0125984955, 0552004544
Azərmətbuat ASC - 0124411991, 0124404694
Səma MMC - 0125940252, 0503336969
PressaİnformMMC - 0703400100, 0504560835
Qaya MMC - 0125667780, 0502352343
Qasid MMC- 0124931406, 0124938343
F.Ş.Ruhid Hüseynov - 0124349301, 0505357898
"Türküstan Media Group" MMC – 050 241-48-23
"Region Press" MMC – 055 316-79-01
Ziya LTD - 0124977696, 0503067744

01.01.2024-cü il tarixdən etibarən qəzetin qiyməti 0,60 AZN təşkil edəcək.
6 aylıq abunə - 79,20 AZN
12 aylıq abunə - 158,40 AZN

Sərin payız...

Bu aylarda nələrə diqqət etməli?

İsti, günəşli günləri soyuq havaların əvəz etdiyi payız fəslinə qədəm qoymuşuq. Sentyabrın 21-də isə payız öz gəlişini rəsmən "bəyan etdi". Ümumiyyətlə, fəsillərin bir-birini təbii halda əvəz etməsi insan orqanizmində də bir sıra dəyişikliklərə, yenilənmələrə səbəb olur. Havalar soyuduqca bəzi hallarda orqanizmimizin müqaviməti azalır, immun sistemi zəifləyir. Bu da kəskin respirator virus xəstəliklərinə yoluxma hallarının sayını artırır. İmmuniteti zəif olan insanlar isə daha çox xəstəliklərə məruz qalırlar.

Statistikaya əsasən, bir çox xəstəliklərin kəskinləşməsi məhz payız aylarında baş verir. Bu fenomenin səbəbini həkimlər hələ ki dəqiq təyin etməyiblər. Alimlər güman edirlər ki, bunun səbəbi insan orqanizmində bioritmlərin kəskin dəyişilməsi ola bilər. Yəni günəşli günlərin sayı azalır, gün qısalır. Bu cür mövsümi dəyişikliklər orqanizmi stress vəziyyətinə salır. Bundan əlavə, dəyişkən yağışlı hava, daim dəyişilən meteoşərait insanda stressin inkişafına təkan verir. Stress isə immun sistemini zəiflədir. Nəticədə insanda olan xroniki xəstəliklər payız aylarında kəskinləşməyə başlayır.

Mütəxəssislər payız mövsümündə soyuq havaya uyğunlaşmaq üçün bədənin daha çox enerji sərf etməsinə diqqət yetirilməli olduğunu bildirirlər. Eyni zamanda, enerji ehtiyatının kifayət qədər olmadığı halda orqanizmdə immunitetin aşağı düşdüyü və infeksiyalara qarşı zəiflədiyi qeyd olunur. Mütəxəssislər həmçinin viruslar nəticəsində yüksək temperatur, əzələ ağrıları ilə özünü büruzə verən xəstəliklərə diqqət edilmədikdə ciddi ağırlaşmalara səbəb ola biləcəyini də söyləyirlər.

Payız allergiyaları...

Payız ayları ilə birlikdə allergik xəstəliklərdə artım müşahidə olunur. Yaz-yay aylarının bitməsinə baxmayaraq, öskürək, burun axması və.s kimi şikayətlərin davam etdiyi və daha da şiddətləndiyinin şahidi oluruq. Sentyabr-oktyabr ayları həm də kif göbələklərinin çoxaldığı dövrdür. Allergik rinit və astmalı xəstələrdə payız ayları burun axması, asqırma, gözlərdə qızartı və qaşınma, nəfəs darlığı, öskürək, yuxusuz gecələr və daha sonra gün boyu davam edən yorğunluq ola bilər. Yağışlarla bitkilərin çürüməsi və kiflərin havaya yayılması payızda allergik şikayətlərin artmasının ən mühüm səbəbidir.

Bilirik ki, payız və yaz aylarına keçid dövrlərində ev tozundan şikayətlər də artır. Unutmaq olmaz ki, ev tozuna qarşı allergiya payız aylarında daha da şiddətlənə bilər. Bu aylarda ev tozuna allergiyası olanlar daha nizamlı dərmanlardan istifadə etməli və ehtiyat tədbirlərini artırmalıdır.

Fəsil dəyişkənliyi zamanı...

Mövzu barədə fikirlərini "Yeni Azərbaycan"la bölüşən həkim-terapevt Şahvələd Məmmədov bildirib ki, yeni fəslə keçən zaman orqanizmdə müəyyən dəyişiklik baş verir. Həkim qeyd edib ki, payız mövsümünə keçid dövründə Günəş şüaları azaldığına görə, insanlar bəzi sağlamlıq problemləri ilə üzləşirlər: "Havaların soyuması, rütubətin artması immun sisteminə mənfi təsir göstərir. Fəslin xüsusilə, ikinci yarısında həm xroniki xəstəliklər kəskinləşir, həm də müxtəlif virus infeksiyalarına yoluxma riskləri artır. Ona görə də fəsil dəyişkənliyi zamanı bəzi qaydalara əməl edərək sağlamlığımıza diqqət yetirməliyik".

Zamanında tədbir görülməsə...

Həkim qeyd edib ki, payız aylarında insan sağlamlığının birinci düşməni nəfəs yollarının infeksiyasıdır. Bu infeksiyalar xüsusilə, uşaqlara, yaşlılara və hamilə qadınlara daha pis təsir edir: "Belə halda qrip, faringit, sinuzit, orta qulaq iltihabı, bronxit, haymorit kimi xəstəliklərin yayılma riski də artır. Payızda şikayətlərin bir qismi də kəskin respirator virus xəstəlikləri ilə bağlı olur. Bu, iki yüzə qədər fərqli törədicilər tərəfindən baş verə bilər. Xəstəlik halsızlıq, burunaxma, boğazda ağrı, əzginlik, iştahsızlıq və hərarət şəklində özünü büruzə verir. Əgər zamanında düzgün və lazımi tədbirlər görülməsə, sətəlcəm, otit və sinusit kimi ağırlaşmalara gətirib çıxara bilər".

Xroniki qastrit, xora xəstəliyi

Ş.Məmmədov bildirib ki, xroniki qastrit, xora xəstəlikləri olan insanların bir çoxusunu payızda qarının yuxarı hissəsində ağrılar, köp, qıcqırma, ürəkbulanması, qusma kimi simptomlar olur: "Bu zaman mütləq qastroenteroloqa müraciət etmək və lazım olan müalicəni almaq lazımdır. Müalicədən əlavə pəhriz də çox önəmlidir. Qidanı az miqdarda və daha tez-tez, gün ərzində 4-5 dəfə qəbul etməyə çalışmaq lazımdır. Belə olan halda mədə artıq yüklənmədən azad olacaq. Profilaktika məqsədi ilə dazı otu, kətan toxumları, tozağacı tumurcuqları dəmləmələri, çaytikanı yağı qəbul etmək olar".

Saç tökülməsi...

Terapevt qeyd edib ki, payız aylarında saç tökülməsi də ən çox rast gəlinən problemlərdən biridir: "Bunun qarşısını almaq üçün, ilk növbədə payız və yaz aylarında saçlara daha çox diqqət artırmaq vacibdir. Daxili orqanlarda çatışmazlıq varsa, mütləq bunu həll etmək lazımdır. Buna ehtiyac olmadıqda medikamentoz müalicə edilməlidir. Ev şəraitində payız saç tökülmələrinin qarşısını almaq üçün müəyyən maskalardan istifadə edilə bilər. Lakin yaxşı olar ki, payız aylarında saç tökülməsindən əziyyət çəkən şəxslər ilk öncə problemin nədən qaynaqlandığını, orqanizmdə hansısa proseslərin düzgün gedib-getmədiyini öyrənsinlər. Sadəcə, maska ilə saç tökülməsinin qarşısını almaq mümkün deyil. İlk öncə problemin haradan qaynaqlandığını araşdırmaq lazımdır".

Düzgün qidalanma vacibdir

Havalar soyuduqca bədənin xəstəliklərə qarşı müqaviməti də aşağı düşür. Ş.Məmmədovun sözlərinə görə, qabaqlayıcı tədbir olaraq immuniteti gücləndirmək lazımdır: "Bunun üçün sağlam həyat tərzinə riayət edilməlidir. Düzgün qidalanma, yuxu rejimi, fiziki aktivlik, bol su qəbulu, mövsümə uyğun meyvə-tərəvəzdən istifadə, balıq məhsullarına üstünlük vermək immun sistemini qüvvətləndirir. Gündəlik qidalanmada karbohidrat, zülal, yağ balansını təmin etmək, vitamin və minerallarla zəngin olan qidalara üstünlük vermək lazımdır. Belə qidaların kifayət qədər qəbul edilməməsi orqanizmə mənfi təsir göstərir və insan özünü pis hiss edir, fiziki və əqli iş qabiliyyəti zəifləyir. Həmçinin hər kəsə gün ərzində təmiz havada minimum 40 dəqiqə yürüş etmək tövsiyə olunur".

Payız depressiyası...

Həkim qeyd edib ki, payızın gəlişi ilə bağlı insanların psixologiyasında da müəyyən problemlər yaranır, bunu da payız depressiyası adlandırılar: "Payız depressiyası psixi qərarsızlıq vəziyyətidir, əhval-ruhiyyənin tez-tez dəyişməsi, həvəssizlik, qıcıqlanma, süstlük, məyusluq, dilxorluq kimi vəziyyətlərlə xarakterizə olunan psixi emosionallıq fonudur. Depressiyanın səbəbi bu fəsildə gündüzlərin qısalması, yağışlı tutqun hava, tünd rəngli geyimlərin çox olmasıdır. Günəşin daha az görünməsi ilə orqanizmdə melotonin hormonu artır, "xoşbəxtlik hormonu" sayılan serotonin isə azalır. Payız depressiyasının əlamətləri səhər yuxudan oyanmaqda çətinlik çəkmə, həddən artıq yatma istəyi, ümumi yorğunluq, iştahasızlıq, hər şeyə marağın itməsidir".

Yeganə BAYRAMOVA

İdman

Azərbaycanın oğlanlardan ibarət millisi beynəlxalq turnirdə iştirak edəcək

Voleybol üzrə oğlanlardan ibarət U-18 yığma komanda Şərqi Avropa Zonal Assosiasiyasının (EEVZA) çempionatında iştirak edəcək. Federasiyadan AZƏRTAC-a verilən məlumata görə, dekabrın 5-dən 9-dək Gürcüstanda təşkil olunacaq yarışda millimiz ilə yanaşı, Gürcüstan, Ukrayna, Estoniya, Polşa, Litva və Latviya voleybolçuları da iştirak edəcəklər. Turnir eyni zamanda "AVRO-2024"ə təsnifat xarakteri daşıyır. Yarışın reqlamentinə əsasən birinci olan komanda Avropa çempionatının final mərhələsinə vəsiqə əldə edəcək.

AGF-in baş katibi: "Grace of Nature" turniri hər il fərqli şəhər və rayonlarda təşkil olunacaq

Dünən Naxçıvanda bədii gimnastika üzrə "Grace of Nature" adlı beynəlxalq turnir start götürüb. Bu, paytaxtdan kənarda təşkil olunan ilk belə yarışdır. Beynəlxalq turnir Heydər Əliyevin 100 illik yubileyinə həsr olunub. Yarışda 250-yə yaxın gimnast iştirak edir.

AZƏRTAC xəbər verir ki, bunu Azərbaycan Gimnastika Federasiyasının baş katibi Nurlana Məmmədzadə Naxçıvanda keçirilən "Grace of Nature" turniri ilə bağlı jurnalistlərə açıqlamasında deyib. O, turnirdə paytaxt gimnastları ilə yanaşı, Gəncə, Oğuz, Qax, Zaqatala, Mingəçevir və digər yerlərdən də idmançıların iştirak etdiyini bildirib: "Burada həm fərdi, həm də komanda yarışlarında gimnastlarımız güclərini sınadılar. Belə yarışların bölgələrdə keçirilməsi çox vacibdir. Düşünürəm ki, turnir azyaşlı gimnastlarımız üçün böyük stimul olacaq. Ümid edirik ki, onlar gələcəkdə beynəlxalq arenada da sözlərini deyəcəklər".

Azərbaycanın müxtəlif bölgələrində bədii gimnastika üzrə bölmələrin fəaliyyət göstərdiyini söyləyən Nurlana Məmmədzadə "Grace of Nature" turnirinin hər il fərqli şəhər və ya rayonda təşkil olunacağını əlavə edib. Qeyd edək ki, bədii gimnastika üzrə beynəlxalq turnir bu gün yekunlaşacaq.

FIFA agenti olmaq istəyənlər imtahan verib

FIFA agenti lisenziyası almaq istəyən şəxslər üçün imtahan keçirilib. AZƏRTAC AFFA-nın rəsmi saytına istinadən xəbər verir ki, imtahan AFFA-nın inzibati binasında təşkil olunub. İmtahandan uğurlu nəticə əldə edən şəxslər FIFA-nın nəzərdə tutduğu lisenziya rüsumunu ödəyərək qurumun agenti kimi fəaliyyət göstərə biləcəklər. Növbəti imtahanlar barədə AFFA-nın rəsmi saytı və sosial platformalar vasitəsilə məlumat veriləcək.



Qallo: Qrup liderliyi üçün şanslarımız davam edir

"Doğma meydanda oynadığımıza görə, qələbədən başqa seçim imkanımız yox idi. Azərbaycan millisi azarkeşləri önündə daha yaxşı oynayır. Düzdür, ilk matçdan məğlub döndük. Həmin qarşılaşmada da pis çıxış etməmişdik, sadəcə epizodları qola çevirə bilmədik. Niderlandla oyunda isə bunu bacardıq. Nəticədə böyükhesablı qələbə qazandıq".

AZƏRTAC xəbər verir ki, bu sözləri futzal üzrə Azərbaycan milli komandasının müdafiəçisi Qallo həm son matç, həm də növbəti görüş haqda federasiyanın rəsmi saytına danışarkən deyib. O bildirib ki, növbəti oyun qrup lideri Qazaxıstana qarşı olacaq: "Bu komandanın gücü, oyunu haqda danışmaq artıq olar. Amma biz Bakıda fərqli oynayacağıq. Rəqib üçün burada meydana çıxmaq çətin olacaq. Onlar dəfələrlə Avropa və dünya çempionatlarının final mərhələsində oynayıblar. Lakin biz də zəif komanda deyilik. Əlbəttə, prioritet 3 xal qazanmaq olacaq. Çünki Dünya Çempionatının final mərhələsinə vəsiqə qazanmaq istəyirik. Azarkeşlərə təşəkkür edirik, bizi çox yaxşı dəstəklədilər. Onlardan Qazaxıstanla oyunda yenidən zala gəlməyi, dəstək verməyi istəyirik".

Futzalçı qrup liderliyi üçün şanslarının davam etdiyini də vurğulayıb: "Hətta 50-nin 50-yə olduğunu deyə bilərəm. Qazaxıstana Bakıda qalib gəlsək, mübarizə yenidən başlayacaq. Sona qədər mübarizə aparacağıq. İndidən liderlikdən əlimizi üzdüyümüzü demək olmaz. Qarşıdakı oyun çox suala aydınlıq gətirəcək".

Gimnast Aysel Mustafazadə: Naxçıvanda yarışmaq çox gözəl hissdir

"Hazırlıqlarımız olduqca yaxşı keçdi. Burada yarışmaq çox gözəl hissdir". Bu sözləri AZƏRTAC-a açıqlamasında Naxçıvanda ümummilli Lider Heydər Əliyevin 100 illik yubileyinə həsr olunmuş bədii gimnastika üzrə "Grace of Nature" beynəlxalq turnirində çıxış edən Bakı Gimnastika Məktəbinin üzvü Aysel Mustafazadə deyib. Yarışda gürzlərlə çıxış edən səkkiz yaşlı gimnast beş ildir bu idman növü ilə məşğul olduğunu bildirib: "Üç yaşımdan gimnastika ilə məşğul oluram. Naxçıvana ilk dəfədir gəlirəm. Burada gimnastlar üçün çox yaxşı şərait var".

Təsisçi:
Yeni Azərbaycan Partiyası
Baş redaktor:
Alqış HƏSƏNOĞLU

www.yeniazerbaycan.com
mail@yeniazerbaycan.com
Ünvan: Bakı - AZ-1000, Üzeyir Hacıbəyov - 66
Telefonlar:
598-37-76, 498-82-21
498-81-24, 498-19-84

İndeks: 67100
Lisenziya: N-B-317
Tiraj: 7397
Sifariş: 2422
"Kapital Bank"ın Nərimanov rayon filialı
h/h - 33080019443900419109
kod - 200093
VÖEN - 1500486601

Qəzet "Yeni Azərbaycan"ın bilgisayar mərkəzində yığılıb, səhifələnib və "Azərbaycan" nəşriyyatında ofset üsulu ilə çap edilib.

Qəzet 1993-cü ilin aprel ayından nəşr olunur.
Məsul növbətçi:
Günel Abbas